RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 148 (10168) 19 avqust 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev yeni səfirin Azərbaycan dilində danışmasını yüksək qiymətləndirib

### Dövlətimizin başçısı Böyük Britaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dankan Normanı qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Çıxışına Azərbaycan dilində başlayan Dankan Norman dedi: "Zati-aliləri, həyat yoldaşım Kerri ilə mən 27 il əvvəl Azərbaycana ilk dəfə gələndə insanların mehribanlığı və Bakının böyük potensialı bizi çox təsirləndirdi. O vaxtdan bəri Azərbaycan çox böyük inkişaf yolu keçib. Ölkələrimiz arasındakı münasibətlərdə yeni səhifəni açmaqdan şərəf duyuram".



Birləşmiş Krallıq ilə Azərbaycan arasında yeni strateji tərəfdaşlıq üzərində işin davam etdiyini bildirən səfir bunun ortaq prioritetlərimiz üzrə daha dərin əməkdaşlıq, təhlükəsizliyin gücləndirilməsi və innovasiyalar vasitəsilə nailiyyətlərimizi daha da inkişaf etdirəcəyini vurğuladı.

Səfir bərpaolunan enerji, müdafiə, aviasiya istiqamətlərində ölkəmizlə dinamik tərəfdaşlıq qurmaq istədiklərini dedi, təhsil sahəsində əlaqələri qeyd etdi və gənclər arasında körpülərin gücləndiyini diqqətə çatdırdı.

O, Prezident İlham Əliyevin Azərbaycanla Ermənistan arasında sülhün qurulması istiqamətində səylərinin Böyük Britaniya Hökuməti tərəfindən təqdir edildiyini və bu irəliləyişin dəstəkləndiyini dedi.

Dankan Norman, eyni zamanda ölkəsinin Azərbaycanın minatəmizləmə səylərini dəstəkləyən ilk beynəlxalq tərəfdaş olduğunu xatırlatdı.

Dövlətimizin başçısı səfirə Bakıda xoş vaxt keçirməyi arzuladı, onun Azərbaycan dilində danışmasını yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev gündəliyimizlə bağlı məsələlərin yalnız ikitərəfli müstəvidə deyil, regional inkişaf və əməkdaşlıq baxımından da böyük əhəmiyyət kəsb etdiyini dedi.

Minatəmizləmə sahəsində yardıma görə Böyük Britaniya Hökumətinə minnətdarlığını ifadə edən dövlətimizin başçısı bu sahədə ölkəmizin daha sıx beynəlxalq əməkdaşlığa ehtiyacı olduğunu bildirdi.

Otuz il əvvəl Azərbaycan-Böyük Britaniya əməkdaşlığının məhz enerji sahəsində başladığını xatırladan Prezident İlham Əliyev hazırda bərpaolunan enerji istiqamətində tərəfdaşlıq üçün böyük potensialın olduğunu bildirdi, bu xüsusda işğaldan azad olunmuş ərazilərimizdə ilk günəş-elektrik stansiyasının BP tərəfindən tikildiyini qeyd etdi.

Dövlətimizin başçısı müstəqilliyimizin 35 ilinin bir ilini sülh şəraitində yaşadığımızı deyərək bunun region üçün böyük bir dəyişiklik olduğunu vurğuladı.

Prezident İlham Əliyev dedi ki, regiondakı vəziyyəti nəzərə alaraq, təhlükəsizlik bizim gündəliyimizdə prioritet olmağa davam edəcək.

Ölkəmizdə müsbət investisiya mühitinin yaradıldığını deyən dövlətimizin başçısı Azərbaycan və Britaniya şirkətləri tərəfindən böyük qarşılıqlı marağın olduğunu vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

## Yüksək etimad göstərilən LİDER



## Prezident İlham Əliyev sülhün ən böyük müdafiəçisidir

Qlobal siyasətdə şəxsi etimad və nüfuz çətin əldə edilir. Prezident İlham Əliyev müasir dünyada sözü imzası qədər kəsərli olan, prinsiplərindən geri çəkilməyən və vədlərinə sadiq qalan lider imici formalaşdırıb. Dünya liderlərinin Azərbaycan Prezidenti haqqında səsləndirdiyi fikirlər bu etimadın əks-sədasıdır.

ABŞ lideri Donald Tramp, "Siz güclü və ağıllı insansınız" ifadəsi ilə Prezident İlham Əliyevin şəxsi məziyyətlərini və sülh prosesindəki rolunu yüksək qiymətləndirib, BMT-nin 80 illik yubileyi zamanı Nyu Yorkda keçirilən rəsmi qəbulda isə "Mən Sizinlə həqiqətən fəxr edirəm" deməklə bu hörməti bir daha nümayiş etdirib.

Çin Xalq Respublikasının Sədri Si Cinpin Çinin Tiencin şəhərindəki görüşdə Prezident İlham Əliyevi "mənim əziz dostum" deyərək salamlamaqla, Pekinin Bakı ilə strateji münasibətlərə və Azərbaycan liderinin şəxsiyyətinə verdiyi ali dəyəri göstərib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iki ölkə arasındakı sarsılmaz qardaşlıq münasibətlərinin zirvəsi kimi Prezident İlham Əliyevə hər zaman "əziz qardaşım" deyə xitab edir.

Serbiya Prezidenti Aleksandar Vuçiç, "Biz Prezident İlham Əliyevin sözünə inanırıq, onun sözü imzasına bərabərdir" bəyanatı ilə Azərbaycan liderinin etibarlı tərəfdaş xarakterini xüsusi vurğulayıb.

Bu cür nümunələrin sayını kifayət qədər genişləndirmək olar, amma elə bu örnəklər də Prezident İlham Əliyevin şəxsiyyətinə göstərilən qlobal ehtiramı aydınlığı ilə göstərir. Bütün bunlar dövlətimizin başçısının qlobal liderlik portretinin mühüm parçalarıdır. Humanizm, qətiyyətli siyasi iradə, beynəlxalq hüquqa hörmət və milli maraqların sarsılmaz müdafiəsi cənab İlham Əliyevi təkcə öz xalqının müzəffər lideri deyil, eyni zamanda beynəlxalq miqyasda söz sahibi olan, dünyada ehtiram edilən və sülhün ən güclü müdafiəçilərindən birinə çevirib. Azərbaycanın ucaltdığı "sülh tağı" bu gün qlobal miqyasda sabitlik, əməkdaşlıq və adil gələcək üçün universal model kimi qəbul edilir.

3

## Azərbaycan idman ölkəsidir

### Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız bu sahədə beynəlxalq yarışların mərkəzinə çevrilib

Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin diqqət və qayğısı çox keçmədən Olimpiya Oyunlarında öz möhtəşəm bəhrəsini verməyə başladı. Bütün dünyanı heyrətə gətirən bu inkişaf dinamikasının xronologiyası bir-birindən uğurlu oldu.

2000-ci ilin 16-30 sentyabr tarixlərində Avstraliyanın Sidney şəhərində baş tutan XXVII Yay Olimpiya Oyunlarında 31 idmançı ilə təmsil olunan ölkəmiz 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan 199 ölkə arasında 34-cü, Avropada 23-cü oldu.

2004-cü ildə Afinada keçirilən XXVIII Yay Olimpiya Oyunlarında 12 idman növündə 38 atletlə təmsil olunan milli komandamız 1 qızıl, 4 bürünc medal qazandı. 2008-ci ildə Pekində keçirilən Yay Olimpiya Oyunlarına 12 idman növündə 44 atletlə qatıldıq. Pekin turnirində ilk dəfə hər üç əyarda - 1 qızıl, 1 gümüş, 4 bürünc (cəmi 6 medal) qazanıldı. Azərbaycan 204 ölkə arasında medal sayına görə 27-ci yeri tutdu.

Yığmamız 9 medal (2 qızıl, 2 gümüş, 5 bürünc) əldə etməklə 2012-ci ildə Böyük Britaniyanın paytaxtı Londonda keçirilən Yay Olimpiya Oyunlarını başa vurdu. Komandamız Avropada 15-ci, MDB-də 5-ci pilləyə yüksəldi.

56 idmançı ilə qatıldığımız və 2016-cı ildə Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunları rekord göstəricilərlə yadda qaldı. Turnirdə 1 qızıl, 7 gümüş, 10 bürünc - cəmi 18 medal qazandıq. Radik İsayev (taekvondo) qızıl medala sahib çıxdı. Azərbaycan 207 ölkə arasında 15-ci yeri tutdu. İslam, türk və Qafqaz ölkələri arasında mütləq lider oldu.



2020-ci ildə Yaponiyanın paytaxtı Tokioda keçirilən Yay Olimpiya Oyunlarında 44 idmançı ilə təmsil olunan komandamız turniri 3 gümüş, 4 bürünc medalla başa vurdu.

XXXIII Yay Olimpiya Oyunları 2024-cü ildə Parisdə keçirildi. Oyunlara 48 idmançı ilə qatılan komandamız 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazandı.

Olimpiya hərəkatı ilə yanaşı, ölkəmizdə Paralimpiya hərəkatına göstərilən ali dövlət diqqəti də tarixi nailiyyətlərlə nəticələnib. Fiziki imkanları məhdud idmançılarımızın beynəlxalq yarışlarda, xüsusən də Paralimpiya Oyunlarında qazandıqları onlarca qızıl və gümüş medal Azərbaycanın idman sahəsindəki inklüziv və hərtərəfli dövlət siyasətinin bariz təzahürüdür.

5

## Tarixi təcrübə və humanizm:

### Azərbaycan-Ukrayna münasibətlərində yeni mərhələ

Prezident İlham Əliyevə İrpen şəhərinin fəxri vətəndaşı statusunun verilməsi həm Azərbaycanın Ukraynaya göstərdiyi ardıcıl dəstəyə verilən yüksək qiymət, həm də Bakı ilə Kiyev arasında əlaqələrin gələcək inkişafına yönəlmiş mühüm siyasi-humanitar mesaj kimi dəyərləndirilməlidir. Hazırda əsas məsələ belə simvolik və strateji addımların qarşıdakı dövrdə yeni iqtisadi, enerji və bərpa layihələri ilə praktiki müstəvidə tamamlanmasıdır. Əgər bu proseslər nəzərdə tutulan dinamika ilə davam edərsə, Bakı-Kiyev münasibətlərindəki mövcud siyasi yaxınlaşma daha geniş və dayanıqlı praktiki əməkdaşlıq mərhələsinə keçəcək.

2

## Beynəlxalq ədalətin Azərbaycan modeli

### Ölkəmiz müstəmləkəçiliyə qarşı mübarizənin önündə gedir

Müstəmləkə altında olan xalqların hüquqlarının beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində bərpası üçün hüquqi müstəvidə təşəbbüslər irəli sürülür. Azərbaycan BMT-nin məcburi köçkünlər və insan hüquqları üzrə mexanizmlərindən istifadə edərək bu məsələləri gündəmdə saxlayır. Qlobal miqyasda konfranslar, simpoziumlar və media brifinqləri keçirilir. Məqsəd müasir müstəmləkəçilik siyasətinin fəsadlarını və yerli əhalinin qarşılaşdığı çətinlikləri dünya ictimaiyyətinə faktlarla çatdırmaqdır. Kolonializm siyasətindən əziyyət çəkən bölgələrdə baş verən haqsızlıqlara, ekoloji terrora və mədəni soyqırımlara dair rəsmi sənədlər və analitik hesabatlar hazırlanır. Bu sənədlər BMT Beynəlxalq Məhkəməsinə, İnsan Hüquqları Şurasına və digər beynəlxalq institutlara təqdim edilir.

2

## Rusiyanın bəzi dairələri təxribatdan əl çəkmirlər

### Ölkəmiz əleyhinə məqsədyönlü informasiya təxribatı və səsləndirilən fikirlər iki dövlət arasındakı münasibətlərə tamamilə ziddir

Azərbaycan əleyhinə yönəlmiş bu cür məqsədyönlü informasiya terroru və hibrid təhdidlər iki ölkə arasında mövcud olan strateji müttəfiqlik və tərəfdaşlıq ruhuna, eləcə də mehriban qonşuluq prinsiplərinə tamamilə ziddir. Bu cür əməllər dövlətlərarası etimadı zədələyir və regiondakı həssas sabitliyə xələl gətirir. O səbəbdən, "media azadlığı" adı altında terroru, zorakılığı və dövlət əleyhinə qəsdləri təbliğ edən şəxslər tutduqları mövqeyindən, vəzifəsindən və yaşadığı ölkədən asılı olmayaraq beynəlxalq hüquq və qanunlar qarşısında cavab verməlidirlər.

3




# Beynəlxalq ədalətin Azərbaycan modeli

## Ölkəmiz müstəmləkəçiliyə qarşı mübarizənin önündə gedir

**Azərbaycan son illərdə neokolonializmə və müstəmləkəçiliyin müasir təzahürlərinə qarşı qlobal mübarizənin əsas mərkəzlərindən birinə çevrilib. Ölkəmiz xüsusilə Qoşulmama Hərəkatına sədrlik etdiyi illərdə (2019-2023) bu məsələni beynəlxalq gündəliyin ön sırasına çıxarıb.**

Müstəmləkəçiliyə qarşı qlobal mübarizə 1955-ci ildə İndoneziyada keçirilmiş və 29 Asiya-Afrika ölkəsinin iştirak etdiyi Bandunq Konfransından sonra daha da vüsət aldı. Həmin konfrans qəbul etdiyi 10 təməl prinsiplə Asiya və Afrika xalqlarının azadlıq həmrəyliyinin təməlini qoydu və 1961-ci ildə Qoşulmama Hərəkatının yaranmasına zəmin yaratdı. Antimüstəmləkəçilik həmrəyliyinin gücləndirilməsi məqsədilə 1958-ci ildə Qanada, habelə Seneqalda və Afrikanın müxtəlif ölkələrində çoxsaylı konfranslar təşkil edildi. Bu tarixi hərəkat BMT Baş Assambleyasının 1960-cı il 1514 saylı Bəyannaməsi ilə bir çox ölkənin dekolonizasiya prosesini sürətləndirdi. İllər keçməsinə baxmayaraq, müasir dünyada müstəmləkəçiliyin qalıqları hələ də qalmaqdadır və hazırda BMT-nin siyahısında özünüidarə etməyən 17 ərazi mövcuddur.

Azərbaycan müstəmləkəçiliyə qarşı mübarizədə mühüm irəliləyiş əldə edib. Ölkəmiz 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik edərək, özünün zəngin tarixi və diplomatik təcrübəsinə əsaslanaraq neokolonializmdən əziyyət çəkən digər xalqlara fəal yardım göstərib. Xüsusilə 2023-cü ildə yaradılmış Bakı Təşəbbüs Qrupu vasitəsilə Fransanın dənizaşırı ərazilərindəki müstəqillik hərəkatlarına beynəlxalq, hüquqi və siyasi dəstək verilib.

Prezident İlham Əliyev "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda keçirilən IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində bu məsələyə toxunaraq deyib: "Dünyada Bakı Təşəbbüs Qrupu kimi təşkilatların sayı çox olsa, bir növ QHT-lərin koalisiyası kimi təsis edilə bilər. Onlar daha yüksək səslə mövqe bildirə bilərlər. Təkcə Yeni Kaledoniya deyil, Avropanın özündə - Korsika Avropanın mərkəzində yerləşir - insanlar özləri öz həyat tərzlərini seçmək istəyirlər. Kimliklərini, dillərini qorumaq istəyirlər. Onlar Fransanı işğal etmək istəmirlər. Onlar öz əcdadlarının torpaqlarında ləyaqətlə yaşamaq istəyirlər. Kənar təsir və hökmranlığa məruz qalmaq istəmirlər. Biz də 19-cu əsrdə müstəmləkə olaraq yaşamışıq. Biz müstəqil olmamışıq. SSRİ-nin tərkibi olmuşuq. Bizim də tarixi yaddaşımızda müstəmləkəçilik var. Heç bir hüququmuz yox idi.

Biz indi müqayisə edə bilərik. Azad olmaq və müstəmləkə olmaq nə deməkdir. Siz 20-ci əsrdə Azərbaycana nəzər sala bilərsiniz. Və bugünkü Azərbaycanla müqayisə etsəniz, görərsiniz ki, bu, gecə və gündüz arasında olan bir fərqdir. Milyard tonlarla neftimiz çıxarıldı. Sovet İttifaqı dağılanda bizim qazımız və elektrik enerjimiz yox idi. İndi də Bakı ətrafında milyardlarla vəsait xərcləyərək çirklənmiş əraziləri təmizləyirik. Bu, bizim sərvətimizi daşıyıb aparanların əməllərinin nəticəsidir. Və 30 ildir, biz müstəqilik. Bu gün biz ortahəcmli gücük. Sovet İttifaqı süquta uğrayanda, yadımdadır ki, bir çox təhlilçilər deyirdilər ki, respublikalar mərkəzsiz yaşaya bilməyəcəklər. Ancaq bu gün bütün respublikalar yaşayırlar".

Azərbaycanın bu sahədəki fəaliyyəti əməli, hüquqi və diplomatik müstəvidə ardıcıl addımlarla müşayiət olunur. Ölkəmiz neokolonializmdən əziyyət çəkən xalqların haqq səsinin beynəlxalq platformalarda ucaldılması üçün sistemli mexanizmlər formalaşdırıb. Yeni Kaledoniya (Kanaki), Fransanın dənizaşırı bölgələri (Mayotta, Reyunyon, Martinika, Qvadelupa) və digər ərazilərdə müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və qüvvələrə təşkilati, media və siyasi dəstək verilir. Bu dəstək həmin xalqların səsini dünya ictimaiyyətinə çatdırmağa imkan yaradır.

Müstəmləkə altında olan xalqların hüquqlarının beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində bərpası üçün hüquqi müstəvidə təşəbbüslər irəli sürülür. Azərbaycan BMT-nin məcburi köçkünlər və insan hüquqları üzrə mexanizmlərindən istifadə edərək bu məsələləri gündəmdə saxlayır. Qlobal miqyasda konfranslar, simpoziumlar və media brifinqləri keçirilir. Məqsəd müasir müstəmləkəçilik siyasətinin fəsadlarını və yerli əhalinin qarşılaşdığı çətinlikləri dünya ictimaiyyətinə faktlarla çatdırmaqdır. Kolonializm siyasətindən əziyyət çəkən bölgələrdə baş verən haqsızlıqlara, ekoloji terrora və mədəni soyqırımlara dair rəsmi sənədlər və analitik hesabatlar hazırlanır. Bu sənədlər BMT Beynəlxalq Məhkəməsinə, İnsan Hüquqları Şurasına və digər beynəlxalq institutlara təqdim edilir.

Azərbaycanın bu sahədəki fəaliyyəti gələcəkdə daha geniş miqyas alacaq. Ölkəmiz, sadəcə, öz ərazi bütövlüyünü bərpa etməklə kifayətlənməyib, həm də qlobal müstəvidə ədalətsizliyə və neokolonializmə qarşı mübarizə aparan lider dövlətlərdən birinə çevrilib. Bütün dünya anlamalıdır ki, azadlıq və suverenlik hər bir xalqın təbii hüququdur. Müasir dünyada müstəmləkəçiliyə yer yoxdur və Azərbaycan bu yolda prinsipial mübarizəsini inamla davam etdirir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Tarixi təcrübə və humanizm:

## Azərbaycan-Ukrayna münasibətlərində yeni mərhələ

**Azərbaycan Prezidenti İlham Əliyevə Ukraynanın İrpen şəhərinin "fəxri vətəndaşı" vəsiqəsinin təqdim olunması Bakı-Kiyev münasibətlərində həm siyasi, həm də simvolik baxımdan xüsusi çəkisi olan mühüm hadisədir. Təqdimatın Prezident İlham Əliyevin Ukraynanın sabiq prezidenti Viktor Yuşşenko ilə görüşü çərçivəsində, vəsiqənin isə Ukraynanın Azərbaycandakı səfiri Yuri Husyev tərəfindən şəxsən təqdim edilməsi bu addımın diplomatik prioritetini nümayiş etdirir.**



**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, bu qərar adi bir protokol jestindən çox daha dərin məna kəsb edir. İrpin müharibə dövründə ağır dağıntılara və humanist böhrana məruz qalmış, eyni zamanda müqavimətin rəmzinə çevrilmiş şəhərlərdən biridir. Belə bir şəhərin fəxri vətəndaşlığının Azərbaycanın dövlət başçısına verilməsi Bakının humanitar dəstəyinə və göstərdiyi bərpa səylərinə verilən yüksək qiymətdir.

K.Bayramov deyib: "Azərbaycan dövləti burada dağıdılmış Akademik Zərifə Əliyeva adına 12 saylı orta məktəbi, eləcə də digər sosial infrastrukturları qısa müddətdə bərpa edib. Bununla yanaşı, Bakı 2022-ci ildən etibarən Ukraynaya elektrik generatorları, energetika avadanlıqları, tibbi ləvazimatlar və ərzaq yardımları göndərib, hərbi əməliyyatlardan zərər çəkmiş uşaqların reabilitasiyasını təşkil edib. Son proseslər göstərir ki, Azərbaycan-Ukrayna əlaqələri yalnız siyasi dialoq və humanitar dəstəklə məhdudlaşmır, həm də iqtisadi və energetika sahələrində yeni mərhələyə qədəm qoyur. Prezident Volodimir Zelenskinin 2026-cı ilin aprelində Azərbaycana rəsmi səfəri zamanı altı ikitərəfli sənədin imzalanması, ardından xarici işlər naziri Ceyhun Bayramovun avqust ayında Ukraynaya səfəri ikitərəfli münasibətlərin dinamikasını nümayiş etdirir. Kiyev administrasiyasının müharibədən əvvəlki ticarət dövriyyəsini bərpa etmək istəyi də tərəflər arasında iqtisadi tərəfdaşlığın gələcək perspektivlərini şərtləndirir. Bütün bunlar Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə dövlətlərin suverenliyi və ərazi bütövlüyünə sadiqliyini bir daha təsdiqləyir".

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyevə İrpen şəhərinin fəxri vətəndaşı statusunun verilməsi həm Azərbaycanın Ukraynaya göstərdiyi ardıcıl dəstəyə verilən yüksək qiymət, həm də Bakı ilə Kiyev arasında əlaqələrin gələcək inkişafına yönəlmiş mühüm siyasi-humanitar mesaj kimi dəyərləndirilməlidir. Hazırda əsas məsələ belə simvolik və strateji addımların qarşıdakı dövrdə yeni iqtisadi, enerji və bərpa layihələri ilə praktiki müstəvidə tamamlanmasıdır. Əgər bu proseslər nəzərdə tutulan dinamika ilə davam edərsə, Bakı-Kiyev münasibətlərindəki mövcud siyasi yaxınlaşma daha geniş və dayanıqlı praktiki əməkdaşlıq mərhələsinə keçəcək.

K.Bayramov bildirib ki, uzun illər ərazi bütövlüyünün pozulmasından və hərbi münaqişədən əziyyət çəkmiş bir ölkə kimi Azərbaycan müharibələrin insan həyatına, xüsusilə də dinc əhaliyə və uşaqlara vurduğu ağır zərbələri yaxşı anlayır: "Məhz buna görə də Ukraynadan olan uşaqlar üçün Azərbaycanda reabilitasiya proqramlarının təşkili müstəsna əhəmiyyət daşıyır. Bu layihələr təkcə fiziki sağlamlığın deyil, eyni zamanda müharibə dəhşətlərini yaşamış uşaqların psixoloji reabilitasiyasının bərpasına yönəlib. Yaxın perspektivdə ukraynalı tələbələr üçün də oxşar təhsil və reabilitasiya təşəbbüslərinin həyata keçirilməsi planlaşdırılır ki, bu da iki ölkə arasında humanitar əməkdaşlığın miqyasını daha da genişləndirəcək. Azərbaycanın göstərdiyi humanitar dəstək yalnız sosial reabilitasiya ilə məhdudlaşmır. Ukraynanın enerji infrastrukturunun ciddi zərər görməsi nəticəsində yaranan kəskin çətinliklər fonunda Bakı tərəfindən davamlı olaraq elektrik generatorları və energetika avadanlıqlarının göndərilməsi mülki əhalinin, xüsusilə xəstəxanaların və digər strateji sosial obyektlərin fasiləsiz fəaliyyətini təmin edir. Bu addımlar Azərbaycanın çətin məqamlarda nümayiş etdirdiyi davamlı humanitar dəstək iradəsinin parlaq təzahürüdür. Ümumilikdə, Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, beynəlxalq hüququn prinsiplərinə, qarşılıqlı hörmətə və ortaq maraqlara söykənən Azərbaycan-Ukrayna əlaqələri bundan sonra da inkişaf edərək daha da möhkəmlənəcək".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Prezidentin sərəncamı Naxçıvanın dinamik inkişafına hesablanmış mühüm sənəddir

## Muxtar respublikanın yüksəlişi Azərbaycanın regional mövqeyini möhkəmləndirəcək

**Azərbaycanın ayrılmaz tərkib hissəsi, qədim dövlətçilik və mədəniyyət tariximizin mühüm ünvanlarından biri olan Naxçıvan Muxtar Respublikası yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələni səciyyələndirən əsas xüsusiyyət isə ondan ibarətdir ki, Naxçıvan artıq yalnız blokada şəraitində inkişaf edən region kimi deyil, Azərbaycanın əsas hissəsi ilə nəqliyyat bağlantısının genişlənəcəyi, beynəlxalq tranzit marşrutlarının qovuşduğu, sənaye və investisiya imkanlarının artdığı strateji iqtisadi məkan kimi nəzərdən keçirilir.**

**Milli Məclisin deputatı Azər BADAMOV** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin Naxçıvanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair qəbul etdiyi qərarlar, imzaladığı sərəncamlar və həyata keçirilən genişmiqyaslı layihələr məhz bu yeni mərhələnin möhkəm təməlini formalaşdırır: "Son illərdə Naxçıvanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğı daha sistemli xarakter alıb. Bu siyasətin əsas məqsədi muxtar respublikanın mövcud potensialından daha səmərəli istifadə etməklə, onun sosial inkişafının, iqtisadi dayanıqlılığının və investisiya cəlbediciliyinin daha da artırılmasıdır. Naxçıvan uzun illər Ermənistan tərəfindən tətbiq olunan blokada şəraitində yaşayıb. Buna baxmayaraq, Azərbaycan dövləti və Naxçıvan əhalisi bu çətinliklərin öhdəsindən gəlməyi bacarıb. Muxtar respublikada genişmiqyaslı quruculuq və abadlıq işləri aparılıb, yol, enerji, su, qaz, sosial və kommunal infrastruktur yenilənib, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə mühüm layihələr həyata keçirilib. Prezident İlham Əliyevin Naxçıvanın inkişafına dair müxtəlif illərdə imzaladığı sərəncamlar bu siyasətin ardıcıllığını göstərir. Dövlət başçısının qəbul etdiyi qərarlar nəticəsində muxtar respublikada infrastrukturun inkişafı, yeni istehsal sahələrinin yaradılması və sosial obyektlərin tikintisi istiqamətində mühüm addımlar atılıb".

Bu gün regionda tamamilə fərqli imkanlar yarandığını deyən deputat bildirib ki, Naxçıvanın Azərbaycan ərazisinin digər hissəsi ilə nəqliyyat bağlantısının təmin olunması istiqamətində əldə edilmiş siyasi və diplomatik nəticələr muxtar respublikanın gələcək inkişafı üçün yeni perspektivlər yaradır. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu maddəsində nəzərdə tutulan nəqliyyat əlaqələrinin bərpası məsələsi sonrakı illərdə Azərbaycanın ardıcıl diplomatik və siyasi səyləri nəticəsində regional gündəmin mühüm istiqamətlərindən birinə çevrilib. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin ABŞ Prezidentinin iştirakı ilə imzaladığı Birgə Bəyannamədə də Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin olunması ilə bağlı mühüm müddəa əksini tapdı. Bu baxımdan, Naxçıvanın gələcəkdə regionun mühüm nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsi üçün artıq siyasi və iqtisadi zəmin formalaşıb. "Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirləri nəzərdə tutan yeni sərəncamı bu prosesin mühüm tərkib hissəsidir. Sərəncam çərçivəsində ayrılan 258 milyon manat vəsaitin konkret sosial və iqtisadi layihələrə yönəldilməsi dövlət siyasətinin mahiyyətini aydın göstərir: Naxçıvanın inkişafı kompleks şəkildə aparılmalı, həm insanların gündəlik həyatına təsir edən sosial məsələlər həll edilməli, həm də gələcək iqtisadi artım üçün infrastruktur bazası gücləndirilməlidir. Sərəncamla 26 yaşayış məntəqəsini birləşdirən 420 kilometr avtomobil yolunun tikintisi və yenidən qurulması, Naxçıvan Dövlət Universitetində təhsil alan tələbələr üçün 1000 yerlik yeni yataqxananın inşası, 162 çoxmənzilli yaşayış binasının əsaslı təmiri, ümumi tutumu 640 yer olan 5 məktəbəqədər təhsil müəssisəsinin tikintisi, şəhərlərarası nəqliyyat parkının yenilənməsi, 122 yaşayış binasının və 45 qazanxananın əsaslı təmiri, həmçinin 15,6 MVt gücündə "Tivi" Su-Elektrik Stansiyasında tikinti-quraşdırma işlərinin davam etdirilməsi nəzərdə tutulur. Bu layihələrin hər biri ayrıca əhəmiyyət daşısa da, onların ümumi mahiyyəti daha genişdir. Söhbət Naxçıvanda müasir həyat standartlarının təmin edilməsindən, yaşayış məntəqələrinin nəqliyyat əlçatanlığının yaxşılaşdırılmasından, enerji təhlükəsizliyinin möhkəmləndirilməsindən və sosial infrastrukturun yenilənməsindən gedir. Xüsusilə yol infrastrukturunun inkişafını qeyd etmək lazımdır. Müasir yollar yalnız insanların rahat hərəkətini təmin etmir, onlar həm də iqtisadiyyatın qan damarlarıdır. Yeni yollar kənd və şəhərləri, istehsalçı və istehlakçını, sahibkar və bazarı bir-birinə daha sıx bağlayır. 420 kilometrlik yol layihəsi bu baxımdan Naxçıvanın daxili iqtisadi əlaqələrinin güclənməsinə, kənd və rayonlarının iqtisadi dövriyyəyə daha fəal qoşulmasına imkan verəcək", - deyə o əlavə edib.

A.Badamovun sözlərinə görə, iqtisadi siyasət baxımından Naxçıvan üçün ən mühüm məsələlərdən biri regionun sənaye potensialının daha geniş şəkildə reallaşdırılmasıdır. Bu istiqamətdə Naxçıvan Sənaye Parkının yaradılması xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin 2024-cü il 5 dekabr tarixli fərmanı ilə yaradılan Naxçıvan Sənaye Parkının 310 hektar ərazini əhatə etməsi nəzərdə tutulur. Parkın yaradılmasında məqsəd müasir istehsal sahələrinin formalaşdırılması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yeni texnologiyaların tətbiqi və rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasıdır. Sənaye Parkının Naxçıvanın gələcək iqtisadi inkişafında xüsusi rol oynayacağına əminlik üçün kifayət qədər əsas var. Çünki sənaye parkları yalnız müəssisələrin yerləşdiyi ərazi deyil, yeni investisiyaların cəlb edilməsi, istehsal kooperasiyasının yaradılması, logistikanın optimallaşdırılması, innovasiyaların tətbiqi və yeni iş yerlərinin açılması üçün mühüm platformadır. Naxçıvan Sənaye Parkının fəaliyyətinin genişlənməsi ilə burada müxtəlif sahələr üzrə rezidentlərin fəaliyyət göstərməsi, yeni istehsal müəssisələrinin yaradılması, yerli xammaldan daha səmərəli istifadə olunması və əlavə dəyər yaradan məhsulların istehsalının artırılması mümkündür. Bu isə iki mühüm nəticəyə gətirib çıxara bilər. Birincisi, Naxçıvanın iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi artacaq. İkincisi, regionun ixrac imkanları genişlənəcək. Naxçıvanda istehsal olunan rəqabətqabiliyyətli məhsulların Azərbaycanın digər regionlarına və xarici bazarlara çıxarılması üçün yeni imkanlar yaranacaq.



Deputat qeyd edib ki, sənaye siyasətinin digər mühüm nəticəsi məşğulluq məsələsinin həllidir: "Yeni müəssisələr yeni iş yerləri deməkdir, lakin burada əsas məsələ yalnız iş yerlərinin sayını artırmaq deyil, həm də yüksək ixtisas və müasir bacarıqlar tələb edən iş yerlərinin yaradılmasıdır. Bu baxımdan, sənaye ilə təhsil arasında əlaqələrin gücləndirilməsi də mühüm əhəmiyyət daşıyır. Naxçıvanın gələcək inkişafında özəl sektorun rolu xüsusi olacaq. Dövlət tərəfindən yaradılan infrastruktur və tətbiq edilən güzəştlər sahibkarlar üçün əlverişli biznes mühiti formalaşdırır. Naxçıvan Muxtar Respublikasında rezidentlər üçün tətbiq olunan vergi və gömrük güzəştləri investisiya qərarlarının qəbulunda mühüm stimullaşdırıcı amilə çevrilə bilər. Belə güzəştlər sahibkarın ilkin xərclərini azaltmaqla yanaşı, investisiyanın geri dönüş imkanlarını da yaxşılaşdırır. Bu isə xüsusilə istehsal, logistika, aqrar emal, turizm, xidmət və innovativ texnologiyalar sahələrində yeni layihələrin meydana çıxmasına şərait yaradacaq. Naxçıvanın gələcək inkişafının digər mühüm istiqaməti "yaşıl enerji" potensialından istifadədir. Muxtar respublikanın təbii-coğrafi xüsusiyyətləri günəş və digər bərpaolunan enerji mənbələrindən istifadə üçün əlverişli imkanlar yaradır. Bu istiqamətdə atılan addımlar yalnız enerji istehsalının artırılması demək deyil. "Yaşıl enerji" Naxçıvanın gələcək sənaye siyasətinin mühüm elementinə çevrilə bilər. Müasir investor üçün enerjinin etibarlılığı ilə yanaşı, onun mənbəyi və ekoloji dayanıqlılığı da əhəmiyyət daşıyır. Bərpaolunan enerji imkanlarının genişləndirilməsi Naxçıvanın "yaşıl zona" konsepsiyası çərçivəsində inkişafına, enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və yeni investisiya layihələrinin reallaşdırılmasına əlavə stimul verəcək. Bu baxımdan, "Tivi" Su-Elektrik Stansiyası ilə bağlı işlərin davam etdirilməsi mühüm addımlardandır. Enerji infrastrukturunun yenilənməsi və genişləndirilməsi Naxçıvanın həm sosial, həm də iqtisadi inkişafının əsas şərtlərindən biridir. Bundan əvvəl də Naxçıvanın paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması ilə bağlı ayrıca sərəncam qəbul edilmişdi və həmin sənəddə enerji təchizatının daha etibarlı, təhlükəsiz və səmərəli təşkil olunması əsas məqsədlərdən biri kimi müəyyənləşdirilib".

A.Badamov bildirib ki, Naxçıvanın qarşıdakı illərdə ən böyük üstünlüklərindən biri onun coğrafi mövqeyi olacaq. Azərbaycan, Türkiyə və İran arasında yerləşən Naxçıvanın nəqliyyat əlaqələrinin genişlənməsi onun tranzit imkanlarını əhəmiyyətli dərəcədə artıracaq. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında bağlantının təmin edilməsi muxtar respublikanın iqtisadi coğrafiyasını da dəyişəcək. Bu bağlantı yalnız Azərbaycanın digər əraziləri ilə əlaqəsinin yaxşılaşması anlamına gəlmir, eyni zamanda beynəlxalq nəqliyyat və ticarət marşrutlarında daha fəal iştirak etməsinə imkan yaradır. Orta dəhliz, Şərq-Qərb və Şimal-Cənub istiqamətləri ilə əlaqələrin genişləndirilməsi Naxçıvana yeni logistika imkanları qazandıracaq. Beləliklə, Naxçıvanın gələcək iqtisadi modelində sənaye, logistika, kənd təsərrüfatı, turizm, enerji və xidmət sektorları bir-birini tamamlayan vahid sistem təşkil edə bilər. "Naxçıvanın inkişafında Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq prosesinin də mühüm təcrübə olduğunu düşünürəm. Bu regionlarda "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji", rəqəmsal idarəetmə və müasir nəqliyyat infrastrukturu bir konsepsiya daxilində həyata keçirilir. Naxçıvan üçün də qarşıdakı mərhələdə əsas hədəf yalnız mövcud infrastrukturu yeniləmək deyil, gələcəyin Naxçıvanını qurmaqdır. Müasir Naxçıvan yüksək texnologiyalara əsaslanan istehsalın, innovasiyaların, rəqəmsal xidmətlərin, "yaşıl enerji"nin, turizmin və beynəlxalq logistikanın inkişaf etdiyi regiona çevriləcək. Bunun üçün insan kapitalının inkişafı da xüsusi əhəmiyyət daşıyır. Naxçıvan Dövlət Universitetində təhsilin keyfiyyətinin artırılması, yeni tələbə yataqxanasının tikintisi, məktəbəqədər təhsil müəssisələrinin yaradılması bu baxımdan yalnız sosial layihə deyil, həm də gələcək iqtisadi inkişaf üçün investisiyadır. Naxçıvanın inkişafına qoyulan hər bir investisiya, əslində, Azərbaycanın ümumi iqtisadi gücünə qoyulan investisiyadır. Çünki muxtar respublikanın sənaye istehsalının artması ölkənin qeyri-neft sektorunun inkişafına, yeni müəssisələrin yaradılması məşğulluğun genişlənməsinə, tranzit imkanlarının artması isə ölkəmizin beynəlxalq logistika xəritəsində mövqeyinin möhkəmlənməsinə xidmət edir. Bu baxımdan, Prezident İlham Əliyevin Naxçıvanla bağlı siyasətinin əsas xüsusiyyəti onun kompleks xarakter daşımasıdır. Burada sosial siyasət iqtisadi siyasətlə, infrastruktur layihələri sənaye siyasəti ilə, nəqliyyat layihələri isə investisiya və ixrac siyasəti ilə tamamlanır", - deyə o əlavə edib.

A.Badamov vurğulayıb ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Naxçıvana səfəri çərçivəsində müxtəlif obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirakı da bu inkişaf prosesinin praktiki miqyasını göstərir. Dövlət başçısının layihələrin icrası ilə bağlı verdiyi tapşırıq və tövsiyələr Naxçıvanın qarşıdakı inkişaf mərhələsində yeni yanaşmaların tətbiqinin vacibliyini bir daha nümayiş etdirir. Naxçıvanın qarşısında tarixi fürsətlər açılıb. Uzun illər blokada şəraitinin yaratdığı məhdudiyyətlərdən sonra muxtar respublika yeni nəqliyyat bağlantıları, genişlənən investisiya imkanları, sənaye parkı, "yaşıl enerji" layihələri, müasir infrastruktur və sahibkarlıq üçün yaradılan əlverişli şərait hesabına yeni iqtisadi mərhələyə keçir. Prezident İlham Əliyevin Naxçıvanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı yeni sərəncamı da bu mərhələnin mühüm maliyyə və institusional dayaqlarından biridir. 258 milyon manatlıq vəsaitin konkret infrastruktur və sosial layihələrə yönəldilməsi Naxçıvanın həm bu gününün, həm də gələcəyinin inkişafına hesablanmış mühüm qərardır.

Deputat deyib ki, Naxçıvanın Zəngəzur istiqamətində nəqliyyat bağlantısının reallaşması, beynəlxalq tranzit imkanlarının genişlənməsi və "yaşıl enerji" potensialından səmərəli istifadə edilməsi regionun geoiqtisadi əhəmiyyətini daha da artıracaq: "Bununla yanaşı, Naxçıvanın zəngin tarixi və mədəni irsi onun yalnız iqtisadi deyil, həm də turizm və humanitar potensialını gücləndirəcək. Bu gün qarşıda duran əsas vəzifə yaradılan imkanlardan maksimum səmərəli istifadə etmək, dövlət dəstəyini özəl təşəbbüslərlə birləşdirmək və Naxçıvanın rəqabətqabiliyyətli iqtisadiyyatını formalaşdırmaqdır. Naxçıvan yeni dövrə qədəm qoyur və bu dövrün əsas xüsusiyyəti yalnız coğrafi baxımdan Azərbaycanın ayrılmaz hissəsi kimi deyil, ölkəmizin iqtisadi inkişafında, regional bağlantılarında, sənaye və logistika siyasətində mühüm rol oynayan strateji mərkəz kimi daha geniş imkanlar qazanmasıdır. İnam var ki, dövlətimizin ardıcıl siyasəti, Naxçıvan əhalisinin zəhməti və sahibkarlarımızın təşəbbüskarlığı nəticəsində qədim diyarımız yaxın illərdə Azərbaycanın ən dinamik inkişaf edən regionlarından birinə çevriləcək. Bu inkişaf təkcə Naxçıvanın deyil, bütövlükdə Azərbaycanın iqtisadi qüdrətinin, regional mövqeyinin və beynəlxalq nüfuzunun daha da möhkəmlənməsinə xidmət edəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Yüksək etimad göstərilən lider

## Prezident İlham Əliyev sülhün ən böyük müdafiəçisidir

**Dövlətlərarası münasibətlərdə hərbi Zəfəri davamlı sülhə çevirmək və bunu qlobal müstəvidə qəbul etdirmək nadir siyasi iradə tələb edir. Prezident İlham Əliyevin nümayiş etdirdiyi uzaqgörən xarici siyasət kursu Cənubi Qafqazda onilliklərlə davam edən münaqişəni aradan qaldırmaqla yanaşı, Bakını qlobal sülh gündəliyinin əsas söz sahiblərindən birinə çevirib. Beynəlxalq hüquqa və ədalətə söykənən bu humanist xətt dünya liderlərinin ehtiramını qazanmaqla yanaşı, müxtəlif xalqlar tərəfindən də yüksək qiymətləndirilir.**

Məhz bu təqdirin növbəti təzühürü kimi, avqustun 17-də Ukraynanın keçmiş Prezidenti Viktor Yuşşenkonun Bakıya səfəri zamanı Prezident İlham Əliyevə "İrpen şəhərinin fəxri vətəndaşı" sertifikatı təqdim olunub. Bu fəxri ad sıradan bir nəzakət jesti deyil, Azərbaycanın çətin günlərdə göstərdiyi mənəvi-humanitar dəstəyə, insanpərvərlik dəyərlərinə və Ukrayna xalqı ilə həmrəyliyinə verilən yüksək beynəlxalq qiymətdir.

### Zəfərdən sülhə

Vurğulandığı kimi, Prezident İlham Əliyevin liderlik fenomeninin ən səciyyəvi xüsusiyyəti onun hərbi-siyasi zəfəri qalıcı sülhə çevirmək bacarığıdır. Otuz ilə yaxın müddətdə işğaldan əziyyət çəkən, BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz hərbi-diplomatik gücü ilə icra edən Azərbaycan, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bölgədə yeni reallıq yaratdı. Azərbaycan lideri yalnız qalib sərkərdə kimi deyil, eyni zamanda sülhün və barışığın ən böyük müdafiəçisi kimi çıxış etdi.

Çevik diplomatiya yürüdən ölkəmizin rəhbəri ötən il Vaşinqton və Əbu-Dabi kimi beynəlxalq platformalarda səmərəli dialoqun tərəfdarı olduğunu ortaya qoydu. İqtisadi inteqrasiya xətti tutan rəsmi Bakı regionun kommunikasiya xətlərinin açılması və ticarət əlaqələrinin bərpası üçün konstruktivlik nümayiş etdirdi. Bölgədə de-fakto sülh yaratdı. Bütün bu sadalananlar Prezident İlham Əliyevin sülh missiyasını uğurlu edən amillərdəndir.

Bu mənada, cari il fevralın 4-də Əbu-Dabidə təqdim olunan "Zayed İnsan Qardaşlığı Mükafatı" və 26 aprel - Gernika qurbanlarının anım günündə dövlətimizin başçısına verilən "Sülh və Barışıq üçün Gernika mükafatı" Azərbaycanın sülh gündəliyinin qlobal miqyasda qəbul olunmasının bariz göstəricisidir.

Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimatındakı çıxışı müharibə və etimadsızlıqdan əziyyət çəkən bütün xalqlar üçün yol xəritəsi xarakteri daşıyırdı: "Hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür".

Rəsmi Bakı yürütdüyü uzaqgörən siyasətlə Cənubi Qafqazı münaqişə ocağından sabitlik və iqtisadi inteqrasiya mərkəzinə çevirməyi bacardı. Azərbaycanın irəli sürdüyü sülh strategiyası kağız üzərində qalan bəyanatlarla deyil, konkret və cəsarətli diplomatik addımlarla möhkəmləndirilib. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə 2025-ci il avqustun 8-də Vaşinqtonda baş tutan tarixi Zirvə görüşü və sülh sazişi mətninin paraflanması üç onillik davam edən qanlı münaqişəyə tamamilə nöqtə qoydu. Neft məhsullarının və zəruri malların Azərbaycan ərazisindən Ermənistana ixrac edilməsi kimi praqmatik addımlar sülhün insanların gündəlik həyatında hiss olunan real faydasını nümayiş etdirdi.

Azərbaycanın ABŞ Prezidentinin təşəbbüsü ilə yaradılmış Sülh Şurasında təsisçi üzv qismində təmsil olunması və Prezident İlham Əliyevin Vaşinqtonda bu qurumun ilk iclasındakı iştirakı Bakının diplomatik uğuru olmaqla yanaşı, onun beynəlxalq sülh platformasında artan çəkisini göstərdi.

Azərbaycanın bu nüfuzlu qurumda təsisçi üzv qismində təmsil olunması həm də beynəlxalq ictimaiyyətin ölkəmizin sülhə verdiyi töhfələrə olan etimadının təzahürüdür. Regional münaqişənin ədalətli həlli, suverenliyin və ərazi bütövlüyünün təmin olunması, dialoq və əməkdaşlığın təşviqi kimi vacib məsələlər də bu sıradadır.

### Sözü imzasına bərabər lider

Qlobal siyasətdə şəxsi etimad və nüfuz çətin əldə edilir. Prezident İlham Əliyev müasir dünyada sözü imzası qədər kəsərli olan, prinsiplərindən geri çəkilməyən və vədlərinə sadiq qalan lider imici formalaşdırıb. Dünya liderlərinin Azərbaycan Prezidenti haqqında səsləndirdiyi fikirlər bu etimadın əks-sədasıdır.

ABŞ lideri Donald Tramp, "Siz güclü və ağıllı insansınız" ifadəsi ilə Prezident İlham Əliyevin şəxsi məziyyətlərini və sülh prosesindəki rolunu yüksək qiymətləndirib, BMT-nin 80 illik yubileyi zamanı Nyu Yorkda keçirilən rəsmi qəbulda isə "Mən Sizinlə həqiqətən fəxr edirəm" deməklə bu hörməti bir daha nümayiş etdirib.

Çin Xalq Respublikasının Sədri Si Cinpin Çinin Tiencin şəhərindəki görüşdə Prezident İlham Əliyevi "mənim əziz dostum" deyərək salamlamaqla, Pekinin Bakı ilə strateji münasibətlərə və Azərbaycan liderinin şəxsiyyətinə verdiyi ali dəyəri göstərib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iki ölkə arasındakı sarsılmaz qardaşlıq münasibətlərinin zirvəsi kimi Prezident İlham Əliyevə hər zaman "əziz qardaşım" deyə xitab edir.

Serbiya Prezidenti Aleksandar Vuçiç, "Biz Prezident İlham Əliyevin sözünə inanırıq, onun sözü imzasına bərabərdir" bəyanatı ilə Azərbaycan liderinin etibarlı tərəfdaş xarakterini xüsusi vurğulayıb.

Bu cür nümunələrin sayını kifayət qədər genişləndirmək olar, amma elə bu örnəklər də Prezident İlham Əliyevin şəxsiyyətinə göstərilən qlobal ehtiramı aydınlığı ilə göstərir. Bütün bunlar dövlətimizin başçısının qlobal liderlik portretinin mühüm parçalarıdır. Humanizm, qətiyyətli siyasi iradə, beynəlxalq hüquqa hörmət və milli maraqların sarsılmaz müdafiəsi cənab İlham Əliyevi təkcə öz xalqının müzəffər lideri deyil, eyni zamanda beynəlxalq miqyasda söz sahibi olan, dünyada ehtiram edilən və sülhün ən güclü müdafiəçilərindən birinə çevirib. Azərbaycanın ucaltdığı "sülh tağı" bu gün qlobal miqyasda sabitlik, əməkdaşlıq və adil gələcək üçün universal model kimi qəbul edilir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Yaxın Şərqi böyük müharibədən kim xilas edəcək



**Böyük ölkələrin və bölgə dövlətlərinin maraqları Yaxın Şərqdə toqquşur. Bu səbəbdən regionda vəziyyət yenidən pisləşib. ABŞ və İran arasında hərbi gərginlik pik həddə çatıb. Bu münaqişə Hörmüz boğazındakı neft yolunu və bölgənin iqtisadiyyatını təhlükəyə atıb. Bu dəfə müharibəni dayandırmaq üçün Körfəz ölkələri hərəkətə keçib. Səudiyyə Ərəbistanı, BƏƏ və Qətər Vaşinqtonla diplomatik danışıqlar aparıb. Bu danışıqlardan sonra ABŞ İrana yeni hücumları təxirə salıb. Onu da qeyd edək ki, bu addım regional diplomatiyanın nə qədər vacib olduğunun bariz göstəricisidir. Bəs Körfəz ölkələrinin diplomatik həmlələri Yaxın Şərqdəki bu müharibəni kökündən dayandıra biləcəkmi?**

Bu sualın cavabını vermək heç də asan deyil. Körfəz ölkələrinin Vaşinqtonla apardığı danışıqları Tehrana verilən siyasi dəstək kimi görmək doğru olmaz. Burada əsas məqsəd bölgənin təhlükəsizliyini və sabitliyini qorumaqdır. Ər-Riyad, Əbu-Dabi və Doha yaxşı anlayır ki, böyük bir hərbi münaqişə baş verərsə, bunun mənfi təsirləri birinci növbədə körfəzdəki infrastruktura, neft obyektlərinə, limanlara və mülki yaşayış məntəqələrinə toxuna bilər. Bu səbəbdən də bölgə ölkələri öz sülhünü və iqtisadi sabitliyini qorumaq üçün diplomatiyaya üstünlük verirlər.

Eyni zamanda Hörmüz boğazında gəmilərin hərəkəti dayansa, daşınma və sığorta qiymətləri kəskin artacaq. Bu da Körfəz ölkələrinin gələcək üçün planlaşdırdığı böyük iqtisadi layihələrə (məsələn, "Vision 2030") mane olacaq. Burada Körfəz ölkələri üçün ən vacib məsələ müharibənin öz ərazilərinə keçməsinin qarşısını almaqdır.

Sülh danışıqları ilə yanaşı, region ölkələri öz təhlükəsizliyini möhkəmləndirməyə çalışırlar. Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistan arasında imzalanan "Məkkə Birgə Müdafiə Sazişi" Körfəz ölkələrinin ikitərəfli planını aydın göstərir: bir tərəfdən ABŞ-ni hərbi addımlardan çəkindirmək, digər tərəfdən isə öz müdafiə gücünü artırmaq. Bu sazişə əsasən, ölkələrdən birinə edilən hücum bütün tərəflərə edilmiş sayılır. Bu da göstərir ki, Səudiyyə Ərəbistanı Ankara və İslamabad kimi güclü tərəfdaşlarla birgə regionda təhlükəsizlik şəraiti yaratmağa çalışır, yəni bir tərəfdən diplomatiya ilə sülhə nail olmaq istəyir, digər tərəfdən isə hərbi ittifaqlar quraraq özünü böyük müharibədən qoruyur.

Mövcud böhranın həllində xüsusilə Oman və Pakistan olmaqla iki əsas diplomatiya kanalı vacib rol oynayır. Dəniz təhlükəsizliyi üzrə məsuliyyəti öz üzərinə götürən Oman neft gəmilərinin təhlükəsiz keçidini təmin etmək üçün Tehranla birbaşa danışıqlar aparır. Lakin İran tərəfi gəmilərin sərbəst hərəkəti üçün ABŞ-nin hərbi təzyiqi və limanlara tətbiq olunan qadağaları ləğv etməsini şərt kimi irəli sürür. Eyni zamanda siyasi dialoq xəttini yürüdən Pakistan ABŞ və İran arasında vasitəçilik edərək tərəfləri atəşkəsə və ortaq sülh sazişinə razı salmağa çalışır. Bu iki diplomatik yol danışıqlara müəyyən ümid versə də, tərəflər arasındakı əsas anlaşılmazlıqlar aradan qalxmasa, gəmilərin keçidi ilə bağlı əldə ediləcək hər hansı razılıq müharibəni tam bitirməyəcək. Bu, sülhdən daha çox, tərəflərə vaxt qazandıran müvəqqəti bir fasilə olacaq.

Mövcud diplomatik gedişatı nəzərə alsaq, regionun gələcəyi ilə bağlı üç əsas ssenari önə çıxır. Birinci və ən yüksək ehtimal olunan ssenari məhdud gəmiçilik razılaşmasının əldə edilməsidir. Bu halda Hörmüz boğazından gəmilərin keçidi müəyyən şərtlərlə bərpa olunur və neft bazarı sakitləşir, lakin əsas müharibə tam bitmir. İkinci və daha aşağı ehtimal olunan ssenari addım-addım sülhə doğru gedilməsidir. Bu variantda Oman və Pakistanın vasitəçiliyi ilə atəşkəs uzadılır, iqtisadi qadağalar yumşaldılır və nüvə danışıqları yenidən başlayır. Üçüncüsü və ən təhlükəli ssenari isə danışıqların iflasa uğramasıdır. Danışıqlar gedən vaxtda baş verə biləcək hər hansı bir təxribat ABŞ-ni yenidən hərbi addımlar atmağa təhrik edə bilər ki, bu da münaqişənin bütün regiona yayılması riski yaradır.

Körfəz ölkələrinin müraciəti ABŞ-nin hərbi addımlarını müvəqqəti saxlaya bilər. Amma diplomatik təsirin də bir həddi var. Əgər ABŞ sanksiya və dəniz blokadası siyasətindən geri çəkilməzsə, İran Hörmüz boğazını bağlamaqla hədələməyə davam edərsə, Körfəz ölkələrinin bu uğuru müharibəni bitirməyəcək, sadəcə, bir müddət gecikdirəcək. Oman və Pakistanın təşkil etdiyi danışıqlar tərəfləri real sülh masasına gətirə bilməzsə, bu gün dayandırılan hücumlar, sadəcə, daha böyük bir müharibənin hazırlığına çevriləcək. Yekun nəticə tərəflərin bu qazanılan vaxtdan necə istifadə edəcəyindən asılıdır: onlar bu zamandan sülh qurmaq üçün, yoxsa daha güclü silahlanmaq üçün istifadə edəcəklər. Bunu gələcək zaman göstərəcək.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Baş prokuror Quba rayonunda vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Avqustun 18-də baş prokuror Kamran Əliyev Quba Rayon Prokurorluğunun inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak etmiş 31 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# Rusiyanın bəzi dairələri təxribatdan əl çəkmirlər

## Ölkəmiz əleyhinə məqsədyönlü informasiya təxribatı və səsləndirilən fikirlər iki dövlət arasındakı münasibətlərə tamamilə ziddir

**Son dövrlərdə Rusiyanın müxtəlif media resurslarında, televiziya kanallarında və sosial platformalarında Azərbaycana, xalqımıza qarşı informasiya hücumları, təxribatlar, təhdidlər sistemli xarakter almaqdadır. Beynəlxalq hüquq normalarını, eləcə də dövlətlərarası münasibətlərin fundamental prinsiplərini kobud şəkildə pozan bu cür genişmiqyaslı qarayaxma kampaniyaları təsadüfi xarakter daşımır və müəyyən dairələrin məqsədyönlü fəaliyyətinin tərkib hissəsi kimi diqqəti cəlb edir.**

Əfsuslar olsun ki, söz və media azadlığı pərdəsi altında təqdim edilməyə çalışılan bu cür materiallar və proqramlar açıq nifrətdən, suverenliyə qəsd çağırışlarından, dövlətçiliyimizi hədəf alan hibrid təhdidlərdən ibarətdir.

Növbəti təxribatın "YouTube" platformasında yayımlanan "Çistota ponimaniya" verilişində baş verməsi məsələnin ciddiliyini daha da artırır. Rəsmi şəxslərin və media mənsublarının yer aldığı bu tip verilişlər zamanı səsləndirilən fikirlər adi ekspert rəyi yox, birbaşa qərəzin aşkar nümunəsi sayılır. Bu cür verilişlərdə Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna və ərazi bütövlüyünə qarşı zorakı metodların tətbiqi, ayrı-ayrı şəxslərin ünvanlı şəkildə fiziki məhvi və terror xarakterli hərəkətlərin həyata keçirilməsi açıq-aşkar təbliğ olunub.

Bununla yanaşı, avqust ayı ərzində müxtəlif media resurslarında analoji təxribatçı ritorikanın ardıcıl şəkildə davam etdirildiyi müşahidə olunur. "Spas" telekanalında və müxtəlif "YouTube" kanallarında yayımlanan materiallarda isə ölkəmizin ünvanına təhqiramiz ifadələr və təxribatçı mülahizələr tirajlanıb. Azərbaycanın daxili siyasi proseslərinə müdaxilə imkanlarının açıq müstəvidə müzakirə edilməsi, xalqımıza və dövlətimizə qarşı fiziki zorakılıq çağırışlarının səsləndirilməsi qətiyyən qəbuledilməzdir.

Baş verən bu arzuolunmaz və təhlükəli meyillərə cavab olaraq Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı Rusiya tərəfinin diqqətinə Bakının dərin narahatlığı və qəti etirazı rəsmi şəkildə çatdırılıb. Rəsmi Bakı xatırladıb ki, Azərbaycan tərəfinin dəfələrlə sözügedən fəaliyyətlərin qarşısının alınmasına dair çağırışlarına və məsələnin müxtəlif siyasi səviyyələrdə müzakirə edilməsinə baxmayaraq, adekvat addımların atılmaması və anti-Azərbaycan ritorikasının daha kəskin formada davam etdirilməsi ciddi təəssüf və narahatlıq doğurur. Rusiya diplomatiyasının diqqətinə çatdırılıb ki, öz media məkanında bu cür təhdid və zorakılıq ritorikasına son qoyulması üçün təxirəsalınmaz və təsirli tədbirlər görülməlidir.

Təxribatlarla bağlı Azərbaycan Mətbuat Şurası da bəyanat yayıb. MŞ-nin bəyanatında vurğulanıb ki, Rusiyanın bəzi kütləvi informasiya vasitələrində Azərbaycan dövlətinə, xalqına, görkəmli şəxsiyyətlərimizə qarşı nalayiq, təhdid xarakterli və təhqiramiz materiallar və fikirlər sivil jurnalistika prinsiplərinə, etik normalara və insani dəyərlərə tamamilə ziddir. Qeyd edilib ki, Azərbaycan Mətbuat Şurası bu kimi halları Azərbaycanla Rusiya arasındakı ikitərəfli münasibətlərin ruhuna, həmçinin media əlaqələrinə tamamilə zidd hesab edir. Vurğulanıb ki, Azərbaycan mediası hər zaman qonşu ölkələr, o cümlədən Rusiya ilə bağlı məsələlərə həssas münasibəti ilə seçilib, peşə prinsiplərindən kənar fikir və iddialara yer verməyib. Buna görə də Rusiyanın informasiya müstəvisində belə xoşagəlməz halların yaşanması Azərbaycan ictimaiyyətində dərin təəssüf və əsaslı narazılıq doğurmaqdadır.

Azərbaycan əleyhinə yönəlmiş bu cür məqsədyönlü informasiya terroru və hibrid təhdidlər iki ölkə arasında mövcud olan strateji müttəfiqlik və tərəfdaşlıq ruhuna, eləcə də mehriban qonşuluq prinsiplərinə tamamilə ziddir. Bu cür əməllər dövlətlərarası etimadı zədələyir və regiondakı həssas sabitliyə xələl gətirir. O səbəbdən, "media azadlığı" adı altında terroru, zorakılığı və dövlət əleyhinə qəsdləri təbliğ edən şəxslər tutduqları mövqeyindən, vəzifəsindən və yaşadığı ölkədən asılı olmayaraq beynəlxalq hüquq və qanunlar qarşısında cavab verməlidirlər. Rəsmi Bakının sərt və prinsipial mövqeyi bir daha nümayiş etdirir ki, ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə, vətəndaşlarının təhlükəsizliyinə və mənəvi dəyərlərinə yönəlmiş heç bir təxribat cavabsız qalmayacaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir

# Yeni SES, yeni qəsəbə

## 51 il öncə Ulu Öndərin təşəbbüsü ilə Şəmkir SES-in təməli qoyulmuşdur



**"Mən fəxr edirəm ki, vaxtilə Kür çayı üzərində Şəmkir Su-Elektrik Stansiyasının təməlini qoydum və bunu qurub-yaratdım. İndi o, Azərbaycan xalqına xidmət edir..."**

**Heydər ƏLİYEV**

**Ölkəmizin qərb bölgəsində, o cümlədən Şəmkirin sosial-iqtisadi həyatında müstəsna əhəmiyyətə malik obyektlərdən biri də Ümummilli Liderin əvəzsiz yadigarlarından olan Şəmkir və Yenikənd SES-lərdir. Hər iki nur mənbəyinin təməli Heydər Əliyevin təşəbbüsü ilə qoyulub.**

Böyük Qafqaz sıra dağlarının ətəklərində, Boz dağın qoynunda, Dəli Kürün üstündə qərar tutan bu qoşa nur seli dünyaşöhrətli siyasətçi, tanınmış dövlət xadimi Heydər Əliyevin təşəbbüsü sayəsində həyata vəsiqə almışdır. Ulu Öndər respublikanın təbii ehtiyatlarının potensialından uzaqgörənliklə istifadə etməklə elektrik enerjisi istehsalını önə çəkmiş, Azərbaycanın elektrikləşdirilməsinə xüsusi diqqət və qayğı göstərmişdir. Kür çayı üzərində tikilən silsilə su-elektrik stansiyaları layihəsinin təşəbbüskarı və hamisi olan respublika rəhbəri 51 il əvvəl - 1975-ci il avqustun 19-da yayın qızmar günlərində Şəmkirə gələrək Kür çayının qarşısında möhtəşəm bəndin təməlini qoymuşdur.

Aylar bir-birini əvəz etdikcə bənd ucaldı, işlər artdıqca işçilər də çoxaldı. Bənddə görülən işlərin gedişi və problemlərlə yerindəcə tanış olmaq üçün növbəti dəfə Şəmkirə gələn Ulu Öndərin təşəbbüsü ilə burada çalışan fəhlə və mütəxəssislər üçün Aşağı Bitdili kəndindən yuxarıda energetiklər üçün yaşayış massivinin əsası qoyuldu.

Müasir texnika, zəhmətsevər əllər, insan nəfəsi bu yerlərin simasını tədricən dəyişdi. O zaman çoxlarına xəyal kimi görünən Şəmkir SES-in tikintisi SSRİ-nin respublika rəhbərləri sırasında öz işgüzarlığı və siyasi uzaqgörənliyi ilə seçilən Heydər Əliyevin dəstəyi ilə reallaşmağa başladı. Nəhayət, 1982-ci il dekabr ayının 22-də SES-in ilk bloku işə salındı. Bir müddət sonra ikinci blok da işə düşdü. Beləliklə, respublikanın enerji sisteminə 380 meqavatlıq dəyərli bir obyekt qoşuldu.

Bununla da Heydər Əliyev ideyaları, Heydər Əliyev siyasəti respublikamızın qərb bölgəsinə, xüsusilə Şəmkir və Samux rayonlarının təsərrüfatlarına məhsul bolluğu, evlərə ruzi-bərəkət gətirdi. Mingəçevirdən üzü Qazaxa kimi yüzlərlə insan burada özünə iş yeri, yeni peşə tapdı, sənət öyrəndi, işlədi, ali təhsil aldı, ailə qurdu. Uzaq və yaxın şəhərlərdə işləyən neçə-neçə şəmkirli öz dədə-baba kəndinə qayıtdı, əl-qolunu çırmayıb SES-də işə düzəldi. Qəsəbə gündən-günə böyüdü, abadlaşdı, əhalinin sayı artdı. Dünyamızın narahat vaxtlarında - 1989-1990-cı illər Fərqanə hadisələri zamanı Özbəkistandan qaçqın düşənlər də Kür qəsəbəsində məskunlaşdılar.

Özülü qoyulan gündən Şəmkir SES bu yerlərə yeni həyat, iqtisadi rifah gətirdi. SES-də işin səmərəliyini artırmaq üçün yeni yarımstansiyalar quruldu, maşınlı su kanalı işə salındı. İllərlə əkin-biçinə həsrət qalan torpaq sahələrinə suvarma suyu verildi, yeni təsərrüfat sahələri, müəssisələr, sex və sahələr yaradıldı.

Kür çayının üstündə ucalan Şəmkir SES-də ötən illər ərzində təxminən milyardlarla kilovatsaat indi "yaşıl" dediyimiz elektrik enerjisi istehsal edilərək Azərbaycan energetika sisteminə ötürüldü, bu da milyonlara bərabər əmtəə məhsulu deməkdir. Ümummilli Lider Heydər Əliyevin stansiyanın inzibati binasının həyətində mərmər lövhəyə həkk olunan "Mən fəxr edirəm ki, vaxtilə Kür çayı üzərində Şəmkir Su-elektrik Stansiyasının təməlini qoydum və onu qurub-yaratdım" kəlamı bu gün burada çalışan hər bir energetikin qürur mənbəyidir.

Şəmkir SES silsiləsinin davamı olan Yenikənd SES-in təməli isə 1984-cü ildə qoyulub. Həmin zaman Heydər Əliyev artıq Moskvada SSRİ rəhbərliyində çalışırdı. O dövr Azərbaycanda yaranan ictimai-siyasi hadisələrin gərginliyindən tikinti işləri çox zəif gedirdi, bəzən fasilələrə yol verilirdi. Sonralar bu zaman kəsiyini təəssüflə yada salan Ümummilli Lider demişdir: "...Biz o illərdə, 70-ci illərdə Kür çayı üzərində tikiləcək Yenikənd Su-elektrik Stansiyasının layihəsini hazırladıq, təsdiq etdik. Biz Şəmkir Su-Elektrik Stansiyasından sonra bu su-elektrik stansiyasının tikintisinə başlamalı idik. Ancaq təəssüflər olsun ki, bu məsələ hələ SSRİ mövcud olduğu zamanda - 80-ci illərin sonunda - SSRİ dağılandan sonra da şübhəsiz ki, bunlara heç fikir verən olmadı".

Acı da olsa, müstəqilliyimizin bərpasından sonrakı ilk illər bərbad vəziyyətə düşmüş bu mühüm obyektdə əsl həqiqət belə idi. Etiraf etməliyik ki, yalnız xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin müdrik rəhbərliyi və tükənməz qayğısı sayəsində yarımçıq tikilinin üzünə gün düşdü, Yenikəndin yeni günləri başladı. Ölkə rəhbəri o ağır illərdə yenidən bu sahəyə diqqət yönəltdi. Şəxsi nüfuzu və aparılan ciddi danışıqlar sayəsində Avropa Yenidənqurma və İnkşaf Bankından lazımi maliyyə dəstəyi alındı. Həmçinin respublikanın daxili imkanları bu sahəyə cəlb olundu, stansiyada tikinti-quraşdırma işləri canlandırıldı, əvvəl ikinövbəli, sonra da üçnövbəli iş rejimi yaradıldı. Nəhayət, Ulu Öndərin şəxsi əlaqələri, diqqət və qayğısı sayəsində tikinti keyfiyyətlə başa çatdırıldı. 2000-ci il mayın 23-də hər biri 37,5 meqavat gücündə üç hidroaqreqat işə salındı.

Açılış mərasimində Heydər Əliyev dördüncü hidroaqreqat üçün nəzərdə tutulmuş yerlə maraqlandı. Bu məsələ neçə vaxt idi ki, ləngiyirdi. Dövlət başçısı hidroaqreqatın alınmasına və quraşdırılmasına tezliklə başlamaq üçün əməli yardım göstərdi. Bu operativ köməyin sayəsində gücü 37,5 meqavat olan dördüncü hidroaqreqat tez bir zamanda enerji sisteminə qoşuldu.

Bu gün Prezident İlham Əliyev ölkənin "yaşıl" energetika sisteminin inkişafına müntəzəm diqqət və qayğı göstərir. 2013-cü il iyulun 19-da Şabran rayonunun ərazisində istifadəyə verilən Taxtakörpü Su-Elektrik Stansiyası, Naxçıvanda, Ordubadda, Füzulidə və digər bölgələrdə, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda yaradılan su-elektrik stansiyaları buna bariz nümunələrdir.

Dövlət başçısının 14 oktyabr 2005-ci il tarixli sərəncamına əsasən, Kiçik Qafqaz sıra dağlarının qoynunda, Qaraqocalı kəndindən yuxarıda üzü Şəmkir SES və Yenikənd SES-ə baxan əzəmətli Şəmkir dəryaçasının əsası qoyuldu. Çox çəkmədi, ölkədə bu sahə üzrə həyata keçirilən ən böyük layihələrdən olan Şəmkirçay dəryaçası və ildə azı 56 milyon kilovat-saat elektrik enerjisi istehsal edən su-elektrik stansiyası istifadəyə verildi. Ümumi su tutumu 175 milyon kubmetr, bəndinin hündürlüyü 190 metr, su səthinin sahəsi 504 hektardan artıq, maksimum dərinliyi 122 metr olan bu dəryaça hesabına Şəmkir, Goranboy, Samux və Göygöl rayonlarında 75 min hektar, o cümlədən Şəmkir rayonunda 41 min hektar torpaq sahəsi suvarma suyu ilə təmin olundu. SES-də isə 6 hidroturbin quraşdırıldı ki, onlardan da bu gün 49 meqavat elektrik enerjisi alınır. Dəryaçanın sağ və sol sahillərində yaradılmış kanalların qarşısında 5 meqavat gücündə hidroturbin quraşdırılıb. Dəryaçadan Gəncə, Şəmkir və Samux şəhərlərinə içməli su verilir. Dövlət başçısının 15 yanvar 2026-cı il tarixli fərmanına əsasən, Gəncə şəhəri və Şəmkir rayonu ərazisində yaradılmış Qərb Sənaye Parkının içməli və suvarma su təchizatına Şəmkir dəryaçası vasitəsilə ödəniləcək. Ümumiyyətlə, Prezident İlham Əliyevin xeyir-duası ilə ərsəyə gələn dəryaçanı nəinki şəmkirlilər, bütün qərb bölgəsinin əhalisi bolluq-bərəkət təknəsi, iqtisadi dirçəliş, işıq və nur mənbəyi, bir sözlə, yeni həyat simvolu kimi dəyərləndirirlər.

***Sabir ƏLİYEV,***
***Rəhman SALMANLI,***
***"Azərbaycan"***





"Azərbaycan xalqı xoşbəxt xalqdır. Biz tariximizlə, mədəniyyətimizlə, görkəmli şəxsiyyətlərimizlə fəxr edə bilərik. Naxçıvan, eyni zamanda, Azərbaycana bir çox görkəmli şəxsiyyətlər bəxş edib. Naxçıvan Azərbaycan xalqına dahi şəxsiyyət Heydər Əliyev kimi Ulu Öndər bəxş edib".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Naxçıvanın yetirdiyi böyük şəxsiyyətlər

**Azərbaycan tarixini zənginləşdirən dəyərlər həm də Vətənin ayrı-ayrı bölgələrində yetişmiş böyük şəxsiyyətlərimizdir. Dünyanın qədim mədəniyyət mərkəzlərindən sayılan Naxçıvanın bu baxımdan özünəməxsus yeri var. Böyük sivilizasiya və dövlətçilik ənənələrinin beşiyi olan bu diyar tarixi abidələri ilə yanaşı, xalqımızın ictimai-siyasi və mədəni düşüncəsinə istiqamət vermiş parlaq simaları ilə də məşhurdur.**

Azərbaycan Atabəyləri - Eldəgizlər dövlətinin paytaxtı olmuş Naxçıvan Orta əsrlərdə mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən birinə çevrilmişdir. Burada Əcəmi Naxçıvani tərəfindən yaradılan memarlıq məktəbi Şərqin sənət tarixində dərin iz qoymuşdur. Sonrakı əsrlərdə isə Naxçıvan Azərbaycanın dövlətçilik tarixinə, ədəbiyyatına, maarifinə, hərb sənətinə, elminə Ümummilli Lider Heydər Əliyev kimi dahi şəxsiyyət, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Cəmşid Naxçıvanski, Yusif Məmmədəliyev kimi görkəmli simalar bəxş etmişdir. Bu şəxsiyyətlərin yaratdığı mükəmməl irs bir-birindən fərqli sahələri əhatə etsə də, hamısını birləşdirən ümumi cəhət Vətənə, xalqa, milli-mənəvi dəyərlərə xidmət ideyasıdır.

### Naxçıvandan dövlətçilik zirvəsinə

Naxçıvanın Azərbaycana bəxş etdiyi şəxsiyyətlər sırasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin yeri müstəsnadır. Bu böyük dövlət adamının fəaliyyəti yalnız müəyyən bir istiqamətlə məhdudlaşmırdı. Ulu Öndər Azərbaycan dövlətçiliyinin inkişafının müxtəlif mərhələlərində siyasi lider, dövlət xadimi və milli ideyanın daşıyıcısı kimi mühüm rol oynayıb. Heydər Əliyevin siyasi irsi bu gün də Azərbaycanın tərəqqisinə xidmət edir.

Naxçıvan isə Heydər Əliyevin həyatında mənəvi-tarixi əhəmiyyət daşıyan məkandır. Ulu Öndər bu torpaqda doğulub, boya-başa çatıb, sadə bir azərbaycanlı ailəsindən dünyanın ən böyük imperiyasının ali rəhbərliyinə qədər zəngin və şərəfli yol keçib. Həmin imperiyanın çökməsi ərəfəsində - 1990-cı ildə Naxçıvana qayıdan Ulu Öndər burada Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizənin önündə oldu. Ümummilli Liderin Naxçıvan Ali Məclisindəki fəaliyyəti Azərbaycanın müstəqillik tarixinin mühüm səhifələrindən birinə çevrildi. Dövlətimizin ilk müstəqillik atributu - bayrağımız burada qəbul olundu. Məhz həmin mürəkkəb dövrdə Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi kimi qəbul edilməsi milli dövlətçilik düşüncəsinin mühüm ifadələrindən biri idi. Ümummilli Liderin Naxçıvandakı fəaliyyəti onun sonrakı siyasi kursunun da mühüm əsaslarını formalaşdırdı. Muxtar respublikada həyata keçirilən siyasi təşəbbüslər Azərbaycan dövlətçiliyinin bərpası və möhkəmləndirilməsi istiqamətində daha geniş proseslərin tərkib hissəsinə çevrildi.

1993-cü ildə ölkənin çətin sınaqlar qarşısında olduğu zamanlarda Ulu Öndərin xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı oldu. Heydər Əliyevin rəhbərliyi ilə dövlət institutlarının möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi və milli dövlətçilik konsepsiyasının inkişafı istiqamətində mühüm addımlar atıldı.

Ulu Öndərin hər zaman müdrikliklə irəli sürdüyü azərbaycançılıq ideologiyası mənəvi inkişafımızın, Azərbaycanın əbədi müstəqilliyinin təminatçısına çevrildi. Onun müəyyən etdiyi azərbaycançılıq özündə iki təməl ideyanı birləşdirirdi: dövlətçilik və vətənpərvərlik. Azərbaycançılıq bir çox istiqamətlərdən ölkəmizə qarşı yönələn təhdidlərin, doğma yurdumuzu etnik bölgüçülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipərə çevrildi, onu zəhərli ideyalardan qorudu.

Azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgəyaşayışının tarixi təcrübəsidir. Ulu Öndər çıxışlarında bir vacib məqamı daim nəzərə çatdırırdı: "Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir və biz bunu qoruyub saxlamalı, dünyaya ən yüksək səviyyədə təbliğ etməliyik".

Əlbəttə, hər bir ideologiyanın uğuru, ilk növbədə, onu irəli sürən düha sahibinin özünün göstərdiyi nümunədən asılıdır. Bu mənada Heydər Əliyev ən böyük azərbaycanlı idi. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən Ulu Öndər yürütdüyü siyasətlə bütün dünya azərbaycanlılarının liderinə çevrilmiş, Yer üzündə yaşayan soydaşlarımızı vahid məqsəd ətrafında birləşdirmişdir. Heydər Əliyev hər zaman xarici ölkələrdə Azərbaycan diasporunun formalaşmasının vacibliyini, lobbiçilik fəaliyyətinin əsas istiqamətlərini və perspektivlərini deyirdi. Ulu Öndər özü dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı uğurla yerinə yetirmiş, bu istiqamətdə mühüm addımlar atmışdır.

Ümummilli Liderin strateji inkişaf kursunu əzmlə davam etdirərək dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Prezident İlham Əliyev Ulu Öndərin azərbaycançılıq amalına sadiqdir. Ölkə rəhbəri qloballaşma dövründə bu ideologiyanı müasir çağırışlara uyğun daha da zənginləşdirmiş, azərbaycançılıq konsepsiyasını cəmiyyətin təkamülünün ideya əsasına çevirmişdir. Azərbaycan bu irs işığında gələcəyə doğru inamla irəliləyir, tarixinin mühüm nailiyyətlərinə imza atır.

Naxçıvanın yetirdiyi görkəmli şəxsiyyətlərdən Əcəmi Naxçıvani daşda əbədiləşən memarlıq əsərləri, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və digər ədəbiyyat adamları söz sənəti, Cəmşid Naxçıvanski hərb, Yusif Məmmədəliyev elm sahələrində böyük irs yaratmışlarsa, Heydər Əliyev də Azərbaycan kimi qüdrətli dövlətin təməlini qoymuşdur.

### Daşlarda dil açan sənət və tarix

Naxçıvanın Azərbaycan mədəniyyətinə bəxş etdiyi böyük şəxsiyyətlərdən biri XII əsrdə yaşamış dahi memar Əcəmi Naxçıvanidir. Onun adı Azərbaycan memarlıq sənətinin inkişafında xüsusi mərhələ təşkil edir. Əcəminin yaratdığı Naxçıvan memarlıq məktəbi Orta əsr Şərq memarlığının ən parlaq nümunələrindən hesab olunur. Möminə xatun türbəsi kimi möhtəşəm abidələr onun həm sənətkarlıq qüdrətinin göstəricisi, həm də dövrün estetik dünyagörüşünün, riyazi düşüncəsinin və yüksək sənət zövqünün daşlaşmış ifadəsidir.

Əcəmi Naxçıvani nümunəsi göstərir ki, bu diyarın Azərbaycana bəxş etdiyi böyük şəxsiyyətlər ən qədim dövrlərdən milli mədəniyyətimizin müxtəlif sahələrində necə misilsiz dəyərlər yaratmışlar. Onun adı ilə bağlı memarlıq məktəbi Naxçıvanın Orta əsrlərdəki yüksək mədəni səviyyəsinin qiymətli nişanəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvanın 100 illiyi ilə bağlı sərəncamında da Əcəmi Naxçıvaninin əsasını qoyduğu memarlıq məktəbinin Naxçıvanın tarixi-mədəni simasının formalaşmasındakı rolu xüsusi vurğulanmışdır.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Naxçıvan yeni intellektual yüksəliş mərhələsinə qədəm qoydu. Bu dövrdə burada yetişən ziyalılar milli maarifçilik, mətbuat, ədəbiyyat və ictimai fikir tarixində mühüm rol oynadılar. Məhəmməd Tağı Sidqi, Məhəmməd ağa Şahtaxtlı, Eynəli bəy Sultanov kimi ziyalıların fəaliyyəti Naxçıvanda yeni düşüncə mühitinin formalaşmasına ciddi təsir göstərdi. Onların əsas məqsədlərindən biri xalqın maariflənməsi, təhsilin yayılması, milli özünüdərkin güclənməsi idi.

Bu mənada Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin irsində maarifçilik xüsusi xətt təşkil edir. Onlar cəmiyyətin dəyişməsi üçün ilk növbədə insanın düşüncəsinin dəyişməli olduğunu anlayırdılar. Məktəb, mətbuat, kitab, teatr və s. kimi vasitələr milli inkişafın əsas alətlərinə çevrilirdi.

### Milli oyanışın böyük söz ustaları

Naxçıvanın Azərbaycan xalqına bəxş etdiyi ən böyük ədəbi şəxsiyyətlər sırasında şübhəsiz ki, Cəlil Məmmədquluzadənin xüsusi yeri var. Yazıçı, dramaturq və publisist kimi o, Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında müstəsna rol oynayıb. Mirzə Cəlilin yaradıcılığı milli özünüdərk, maarifçilik, cəhalətə və sosial ədalətsizliyə qarşı mübarizə ideyaları ilə səciyyələnir.

Cəlil Məmmədquluzadənin adı ilk növbədə "Molla Nəsrəddin" jurnalı ilə bağlıdır. Bu jurnal Azərbaycan ictimai fikrində yeni mərhələnin təməlini qoymuş, satira vasitəsilə cəmiyyətin ağrılı problemlərini geniş auditoriyaya çatdırmışdır. Görkəmli ədib bir-birindən dəyərli əsərləri ilə Azərbaycan cəmiyyətinin müxtəlif problemlərini böyük sənətkarlıqla əks etdirirdi. Onun yaradıcılığında milli dil, milli birlik və milli şüur məsələləri xüsusi əhəmiyyət daşıyırdı. Cəlil Məmmədquluzadənin Naxçıvanla bağlılığı isə təkcə onun burada doğulması ilə məhdudlaşmır. Naxçıvanın ictimai mühiti, insanları və həyat tərzi onun yaradıcılığının formalaşmasında mühüm rol oynamışdır.

Bu diyarın yetirdiyi digər böyük şəxsiyyətlərdən biri də Hüseyn Caviddir. Görkəmli şair, dramaturq və mütəfəkkir Azərbaycan romantizminin böyük nümayəndələrindən biri olmaqla yaradıcılığında insan, azadlıq, məhəbbət, ədalət, xeyir və şər kimi ümumbəşəri mövzuları yüksək fəlsəfi səviyyədə ifadə edib. Cavidin "Şeyx Sənan", "İblis", "Peyğəmbər", "Səyavuş", "Topal Teymur" və s. kimi əsərləri Azərbaycan ədəbiyyatının klassik irsinin mühüm hissəsini təşkil edir. Cavidin yaradıcılığının aparıcı xüsusiyyəti milli düşüncə ilə ümumbəşəri ideyaların vəhdətidir. Hüseyn Cavidin taleyi isə XX əsrin repressiyalarının faciəsini özündə əks etdirir. Onun yaradıcılıq irsi uzun illər təzyiq altında qalsa da, son nəticədə öz həqiqi qiymətini aldı.

Ümummilli Lider Heydər Əliyevin Cavid irsinə münasibəti bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin nəşinin 1982-ci ildə Sibirdən Azərbaycana gətirilməsi və Naxçıvanda dəfn olunması mədəniyyət tariximizin ən təsirli hadisələrindəndir. Sonralar Naxçıvanda Hüseyn Cavid məqbərəsinin yaradılması da böyük şairin xatirəsinə dövlət səviyyəsində göstərilən ehtiramın ifadəsinə çevrildi.

Cavid irsi ilə Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsi, bu mənəvi dəyərlər işığında Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasəti arasında mühüm mənəvi bağ var: biri Azərbaycan insanının mənəvi dünyasını söz və sənət vasitəsilə yüksəldir, digəri həmin milli-mənəvi dəyərləri dövlət səviyyəsində qoruyur, onun üzərində Azərbaycanın bu gününü və sabahını qurur, gələcək nəsillər üçün güclü, mükəmməl dövlətçilik irsi formalaşdırır.

Naxçıvan torpağı Azərbaycan ədəbiyyatına böyük bir yazıçı və publisist - Məmməd Səid Ordubadini da bəxş edib. O, xüsusilə tarixi roman janrının inkişafında mühüm rol oynayıb. Ordubadinin "Dumanlı Təbriz", "Qılınc və qələm" kimi əsərləri tariximizin müxtəlif mərhələlərini bədii şəkildə canlandırmaqla yanaşı, milli yaddaşın qorunmasına xidmət edir. Naxçıvanın ədəbi mühiti və Ordubadın tarixi-mədəni atmosferi onun yaradıcılığının formalaşmasına ciddi təsir göstərib. Məmməd Səid Ordubadinin yaradıcılığının əhəmiyyəti ondadır ki, o, tarixi yalnız keçmiş haqqında məlumat kimi təqdim etmir. Tarixi hadisələri insan taleləri ilə birləşdirərək oxucunu milli keçmiş üzərində düşünməyə sövq edir.

Naxçıvanın yetişdirdiyi şəxsiyyətlər sırasında tanınmış hərbçilərimiz də var. Xüsusilə Naxçıvanskilər nəslinin Azərbaycan hərb tarixində mühüm xidmətləri olub. Bu nəslin nümayəndələri arasında Cəmşid Naxçıvanskinin adı hər zaman böyük ehtiramla çəkilir. Cəmşid Naxçıvanski Azərbaycanın milli hərbi kadrlarının formalaşması və peşəkar zabit ənənələrinin inkişafı baxımından mühüm xidmətlər göstərib. Onun adı ilə bağlı hərbi təhsil ənənəsi sonrakı nəsillərin yetişdirilməsində əhəmiyyətli rol oynayıb.

Naxçıvanın yetirdiyi tarixi şəxsiyyətlərdən söhbət açarkən Azərbaycan və dünya elminə böyük töhfələr bəxş etmiş görkəmli alim, akademik Yusif Məmmədəliyevin adını çəkməmək olmaz. Kimya elminin inkişafı və Azərbaycanda bu sahədə elmi məktəbin formalaşması onun adı ilə bağlıdır. Yusif Məmmədəliyevin fəaliyyəti Naxçıvanın yetirdiyi şəxsiyyətlərin xidmətlərinin dünya elminə də böyük töhfələr verdiyini göstərir.

Naxçıvanın Azərbaycana bəxş etdiyi şəxsiyyətlərin həyat və yaradıcılığına nəzər saldıqda maraqlı mənzərə ortaya çıxır. Onlar müxtəlif əsrlərdə, fərqli tarixi şəraitlərdə yaşayıb, ayrı-ayrı sahələrdə fəaliyyət göstərsələr də, bu şəxsiyyətləri ümumi mənəvi dəyərlər birləşdirir. Bu dəyər milli kimliyə bağlılıq, maarifçilik, dövlətçilik, Vətənə xidmət və tarixi yaddaşın qorunması ideyalarına sadiqlikdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***



# Azərbaycan idman ölkəsidir

## Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız bu sahədə beynəlxalq yarışların mərkəzinə çevrilib

**Uğurlu gələcəyi hədəfləyən hər bir dövlət üçün idmanın inkişafı fiziki sağlamlıq məsələsi olmaqla yanaşı, həm də milli genofondun qorunması, gənclərin vətənpərvər ruhda tərbiyəsi və beynəlxalq aləmdə ölkənin nüfuzunun təsdiq olunması deməkdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfər göstərdi ki, Azərbaycan gəncliyinin qəlbindəki qalibiyyət ruhu və sarsılmaz iradə məhz illərlə formalaşan bu uzaqgörən siyasətin, fiziki və mənəvi baxımdan möhkəm yetişən gənc nəslin bəhrəsidir. Lakin bu şanlı zirvəyə gedən yol heç də hamar olmayıb.**

Müstəqilliyimizin ilk illərində - 1990-cı illərin əvvəllərində yaşanan dərin siyasi və sosial-iqtisadi böhran digər sahələr kimi idmana da dağıdıcı təsir göstərmiş, idman infrastrukturu sıradan çıxmış, idmançılarımız dövlət qayğısından tamamilə kənarda qalmışdı.

1993-cü ildə xalqımızın istəyi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində bu sahə də dövlətin prioritet inkişaf istiqamətlərindən birinə çevrildi. Ulu Öndər gözəl bilirdi ki, parlaq gələcək gənclər və idman siyasətinin düzgün təməllər üzərində qurulmasından asılıdır. Məhz bu düzgün baxışın nəticəsi olaraq 1994-cü ildə Gənclər və İdman Nazirliyi, 1995-ci ildə isə Prezident yanında İdman Fondu yaradıldı. Bu addımlar müasir idman tariximizin ilkin təməl daşları oldu.

Bununla belə, Azərbaycan idmanının həqiqi intibah dönəmi, sözün əsl mənasında, cənab İlham Əliyevin adı ilə bağlıdır.

### Azərbaycan idmanında tarixi dönüş nöqtəsi

1992-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) yaradılsa da, fəaliyyətinin ilk illərində görünən nəticələr qənaətbəxş olmadı. O dövrün yeganə mühüm hadisəsi 1996-cı ildə Atlanta Olimpiadasında müstəqil dövlət kimi ilk dəfə 23 idmançı ilə təmsil olunmağımız və sərbəst güləşçimiz Namiq Abdullayevin (52 kq) qazandığı tək gümüş medal idi.

İdmanda həqiqi dönüş nöqtəsi 1997-ci il iyulun 31-də gerçəkləşdi. Milli Olimpiya Komitəsinin növbəti baş məclisində cənab İlham Əliyevin komitənin prezidenti seçilməsi ölkəmizdə müasir Olimpiya hərəkatının başlanğıcını qoydu. Onun MOK-a rəhbərlik etməyə başlaması ilə idman sahəsi sürətli inkişaf yoluna qədəm qoydu, ölkəmizdə bədən tərbiyəsi geniş vüsət aldı, beynəlxalq əlaqələr sistemli şəkildə quruldu, qarşıya çıxan problemlər bacarıqla həll edildi, hərəkatın dəqiq məqsəd və vəzifələri müəyyənləşdirildi.

Milli Olimpiya Komitəsinə rəhbərlik etdiyi illərdən başlayaraq, eyni zamanda 2003-cü ildə xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq Prezident seçildiyi tarixdən bu günədək cənab İlham Əliyev idmanı dövlət siyasətinin ana xətlərindən birinə çevirib.

Onun rəhbərliyi altında ötən illərdə MOK-un təşkilati və quruculuq işləri bir an belə səngiməyib. 2000-ci ildən indiyədək ölkə üzrə 50-yə yaxın Olimpiya İdman Kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilib, mövcud obyektlər əsaslı bərpa olunub. Bu gün paytaxt Bakı və ölkənin ən ucqar rayonları belə müasir idman infrastrukturu ilə təmin olunub. 70 min tamaşaçı tutumuna malik Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Bakı Atıcılıq Mərkəzi, İdman Şəhərciyi bu qəbildəndir.

Bölgələrdə istifadəyə verilən idman kompleksləri gənclərin zərərli vərdişlərdən uzaqlaşaraq kütləvi şəkildə idmana cəlb olunmasında, vətənpərvər və sağlam nəsil kimi yetişməsində müstəsna rol oynayır. Bununla yanaşı, idmançıların və məşqçi heyətinin sosial müdafiəsinin gücləndirilməsi, beynəlxalq arenalarda fərqlənən atletlərin yüksək dövlət mükafatları və ordenlərlə təltif edilməsi idmana marağı kütləvi müstəviyə daşıyıb.

Yaradılan bu nəhəng baza gənclərin idmana kütləvi axınını təmin etməklə yanaşı, Azərbaycanı dünyanın idman mərkəzlərindən birinə çevirib.

### Şanlı idman səhifələri

Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin diqqət və qayğısı çox keçmədən Olimpiya Oyunlarında öz möhtəşəm bəhrəsini verməyə başladı. Bütün dünyanı heyrətə gətirən bu inkişaf dinamikasının xronologiyası bir-birindən uğurlu oldu.

2000-ci ilin 16-30 sentyabr tarixlərində Avstraliyanın Sidney şəhərində baş tutan XXVII Yay Olimpiya Oyunlarında 31 idmançı ilə təmsil olunan ölkəmiz 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan 199 ölkə arasında 34-cü, Avropada 23-cü oldu.

2004-cü ildə Afinada keçirilən XXVIII Yay Olimpiya Oyunlarında 12 idman növündə 38 atletlə təmsil olunan milli komandamız 1 qızıl, 4 bürünc medal qazandı. 2008-ci ildə Pekində keçirilən Yay Olimpiya Oyunlarına 12 idman növündə 44 atletlə qatıldıq. Pekin turnirində ilk dəfə hər üç əyarda - 1 qızıl, 1 gümüş, 4 bürünc (cəmi 6 medal) qazanıldı. Azərbaycan 204 ölkə arasında medal sayına görə 27-ci yeri tutdu.

Yığmamız 9 medal (2 qızıl, 2 gümüş, 5 bürünc) əldə etməklə 2012-ci ildə Böyük Britaniyanın paytaxtı Londonda keçirilən Yay Olimpiya Oyunlarını başa vurdu. Komandamız Avropada 15-ci, MDB-də 5-ci pilləyə yüksəldi.

56 idmançı ilə qatıldığımız və 2016-cı ildə Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunları rekord göstəricilərlə yadda qaldı. Turnirdə 1 qızıl, 7 gümüş, 10 bürünc - cəmi 18 medal qazandıq. Radik İsayev (taekvondo) qızıl medala sahib çıxdı. Azərbaycan 207 ölkə arasında 15-ci yeri tutdu. İslam, türk və Qafqaz ölkələri arasında mütləq lider oldu.

2020-ci ildə Yaponiyanın paytaxtı Tokioda keçirilən Yay Olimpiya Oyunlarında 44 idmançı ilə təmsil olunan komandamız turniri 3 gümüş, 4 bürünc medalla başa vurdu.

XXXIII Yay Olimpiya Oyunları 2024-cü ildə Parisdə keçirildi. Oyunlara 48 idmançı ilə qatılan komandamız 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazandı.

Olimpiya hərəkatı ilə yanaşı, ölkəmizdə Paralimpiya hərəkatına göstərilən ali dövlət diqqəti də tarixi nailiyyətlərlə nəticələnib. Fiziki imkanları məhdud idmançılarımızın beynəlxalq yarışlarda, xüsusən də Paralimpiya Oyunlarında qazandıqları onlarca qızıl və gümüş medal Azərbaycanın idman sahəsindəki inklüziv və hərtərəfli dövlət siyasətinin bariz təzahürüdür.

### Bayrağımız qalibiyyət zirvələrində hələ çox ucalacaq

Həyata keçirilən məqsədyönlü siyasət Bakını dünyanın aparıcı idman mərkəzlərindən birinə çevirdi. "Bakı-2015" I Avropa Oyunları, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" Qran-priləri, Futbol üzrə Avropa Çempionatının (Avro-2020) 4 qarşılaşması və yüzlərlə dünya-qitə çempionatının ölkəmizdə keçirilməsi bu etimadın bariz nümunəsidir.

Ölkəmiz "Bakı-2015" I Avropa Oyunlarını keçirmə hüququnu 2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin (AOK) 41-ci Baş Assambleyasında 48 səsdən 38-ini toplayaraq qazandı. Prezident İlham Əliyevin 2013-cü il 17 yanvar sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın sədrliyi ilə Bakı şəhərində I Avropa Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi yaradıldı. Bu miqyaslı yarışlar üçün, adətən, 7-8 il vaxt verilsə də, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə cəmi 2 il yarım ərzində heç bir metodiki təlimat və təcrübə olmadan misilsiz təşkilatçılıq nümayiş etdirildi. 5 yeni idman kompleksi - Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi, Bakı Su İdmanı Sarayı və Velopark sıfırdan tikildi, digərləri tam yenidən quruldu. Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının qatıldığı bu möhtəşəm idman bayramındakı xidmətlərinə görə Mehriban xanım Əliyeva "Heydər Əliyev" ordeni ilə təltif edildi.

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları zamanı da tarix yazıldı. Prezident İlham Əliyevin 2015-ci il 18 sentyabr sərəncamı ilə yaradılan və yenə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi 2 il ərzində 16 idman arenasını tam hazır vəziyyətə gətirdi. Müsəlman dünyasının idman mərkəzinə çevrilən Bakı öz qonaqpərvərliyi və yüksək təşkilatçılığı ilə islam aləminin idman tarixinə yeni parlaq səhifə yazdı.

Azərbaycanın idman siyasəti bu gün də eyni dinamika və ardıcıllıqla davam etməkdədir. Ölkəmizin beynəlxalq idman qurumları ilə qurduğu yüksək əməkdaşlıq münasibətləri mütəmadi olaraq ən ali səviyyədə təsdiqini tapır.

Bu il iyulun 29-da Prezident İlham Əliyevin Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul etməsi bunun növbəti əyani sübutudur. Görüş zamanı Nenad Laloviç Bakıda 17 yaşadək güləşçilər arasında keçirilən dünya çempionatının yüksək səviyyədə təşkilinə və ümumilikdə idmanın güləş növünə göstərilən dövlət dəstəyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Dövlət başçımızın gənc və yeniyetmə idmançıların yetişməsinə verdiyi bu böyük əhəmiyyət əlbəttə ki, gələcək Olimpiya zəfərlərimizin təməlini indidən möhkəmləndirir.

Beynəlxalq idman təşkilatlarının Azərbaycana olan sonsuz etimadının növbəti göstəricisi kimi, ölkəmiz daha bir möhtəşəm mundiala evsahibliyi etmək hüququ qazanıb. Bu il avqustun 16-da Frankfurtda keçirilən bədii gimnastika üzrə 42-ci Dünya çempionatının bağlanış mərasimində Dünya Çempionatının bayrağı Almaniya nümayəndə heyəti tərəfindən Dünya Gimnastikasına, oradan isə növbəti ev sahibi olan Azərbaycan nümayəndə heyətinə təqdim edilib. Bu simvolik mərasimlə bədii gimnastika üzrə 43-cü Dünya çempionatının 15-19 sentyabr 2027-ci il tarixlərində Azərbaycanda keçiriləcəyi rəsmiləşib.

Milli gimnastikamızın qazandığı bu tarixi uğurlar və beynəlxalq arenadakı yüksək nüfuzu Birinci vitse-prezident, Azərbaycan Gimnastika Federasiyasının Prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin, bu idman növünün inkişafına göstərdiyi diqqət və qayğının bariz bəhrəsidir. Məhz onun rəhbərliyi ilə Azərbaycan dünyada gimnastika mərkəzlərindən birinə çevrilib, idmançılarımız ardıcıl qələbələrlə ölkəmizin şərəfini uca tutublar.

Azərbaycan idmanının keçdiyi inkişaf yolu təkcə medallarla deyil, həm də milli ruhun yüksəlişi ilə ölçülür. Torpaqlarımızın işğal altında olduğu illərdə idmançılarımız beynəlxalq arenalarda bayrağımızı ucaldıb himnimizi səsləndirməklə, xalqımıza böyük Qələbənin mənəvi qürurunu və ümidini yaşadanlar olurdular. Prezident İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğısı sayəsində idman zallarında fiziki və mənəvi baxımdan möhkəmlənən, vətənpərvərlik ruhunda yetişən həmin gənclər 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tarixi Zəfərimizi yazan qəhrəmanlara çevrildilər.

Bu gün idmançılarımız beynəlxalq yarışlarda artıq qalib xalqın, müzəffər dövlətin nümayəndələri kimi çıxış edirlər. İşğaldan azad edilmiş torpaqlarımızda - Şuşada, Xankəndidə və digər bölgələrimizdə idman yarışlarının təşkili, yeni infrastrukturların qurulması Prezident İlham Əliyevin idman siyasətinin Zəfərlə taclanan ən qürurverici mərhələsidir.

Hazırda Azərbaycan idmanı özünün ən şərəfli, qürurverici və intibah dövrünü yaşayır. 1997-ci ildə İlham Əliyevin Azərbaycan Milli Olimpiya Komitəsinə prezident seçilməsi ilə başlayan bu şanlı yol ölkəmizi dünyada tanınan idman dövlətinə çevirib.

Gənclərimizin idmana olan həvəsi, yeni nəsil idmançıların üzə çıxarılan potensialı və dövlətimizin idmançılara göstərdiyi sonsuz qayğı göstərir ki, Azərbaycan bayrağı beynəlxalq arenalarda, Olimpiya zirvələrində hələ çox ucalacaq, dövlətimizin idman salnaməsinə yeni-yeni zəfər səhifələri yazılacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# *Torpaqların konsolidasiyası:* Ölkəmizin kənd təsərrüfatında yeni inkişaf imkanı

**Milli Məclisdə kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası ilə bağlı qanunvericilik dəyişikliklərinin qəbul edilməsi aqrar sahənin gələcək inkişafı baxımından mühüm addımdır. Bu qərarı yalnız torpaq münasibətlərinin hüquqi tənzimlənməsi kimi deyil, kənd təsərrüfatında istehsal xərclərinin azaldılması, texnoloji imkanların genişləndirilməsi və fermer təsərrüfatlarının rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətində struktur islahatı kimi qiymətləndirmək lazımdır.**

Azərbaycanda həyata keçirilmiş torpaq islahatları kənd əhalisinin torpaq mülkiyyətinə çıxışını təmin etmiş və xüsusi mülkiyyətə əsaslanan fermer təsərrüfatlarının formalaşmasına imkan yaratmışdır. Bununla yanaşı, sonrakı dövrdə torpaq sahələrinin vərəsəlik, alqı-satqı və digər səbəblərlə xırda hissələrə bölünməsi yeni iqtisadi problem ortaya çıxarmışdır. Bəzən bir fermerə məxsus torpaqlar vahid ərazidə deyil, bir-birindən uzaqda yerləşən bir neçə kiçik sahədən ibarət olur. Kağız üzərində torpağın ümumi sahəsi dəyişməsə də, onun istehsal imkanları və təsərrüfat dəyəri zəifləyir.

Kiçik və pərakəndə yerləşmiş torpaq sahələrində istehsalın maya dəyəri, bir qayda olaraq, daha yüksək olur. Traktorun, kombaynın və digər kənd təsərrüfatı texnikasının bir sahədən digərinə daşınması əlavə yanacaq, əmək və vaxt itkisi yaradır. Torpaq sahələrinin sərhədləri çoxaldıqca əkin üçün tam istifadə olunmayan hissələr meydana çıxır, suvarma şəbəkəsinin qurulması bahalaşır, torpağın becərilməsi, məhsulun yığılması və daşınması çətinləşir. Eyni zamanda səpin, gübrələmə, dərmanlama və məhsul yığımı kimi aqrotexniki tədbirlərin vaxtında və vahid qaydada həyata keçirilməsi mümkün olmur.

Başqa sözlə, torpaq sahələrinin xırdalığının ayrı-ayrı fermerlərə aid lokal problem deyil, bütövlükdə Azərbaycan kənd təsərrüfatının istehsal səmərəliliyinə təsir göstərən struktur məsələdir.

Aydın məsələdir ki, fermerə məxsus 10 hektar torpağın vahid ərazidə yerləşməsi ilə həmin torpağın beş-altı müxtəlif sahəyə parçalanması iqtisadi baxımdan eyni nəticə vermir. Vahid sahədə texnikadan, əmək resurslarından və suvarma imkanlarından daha səmərəli istifadə etmək mümkündür. Torpaq pərakəndə yerləşdikdə isə fermer hər bir sahəyə ayrıca getməli, texnikanı dəfələrlə daşımalı və işə hazırlamalı, məhsulu ayrı-ayrılıqda toplamalı və nəql etməlidir. Nəticədə eyni həcmdə məhsulun istehsalı üçün daha çox yanacaq, əmək və vaxt sərf olunur, məhsul vahidinə düşən xərc isə artır.

Bu problem xüsusilə taxılçılıq, pambıqçılıq, yem istehsalı və geniş sahə ilə yüksək mexanikləşmə tələb edən digər istiqamətlərdə özünü daha aydın göstərir. Lakin bütün kiçik torpaq sahələrinin mütləq səmərəsiz olduğunu söyləmək də düzgün olmazdı. İstixana təsərrüfatı, tərəvəzçilik, giləmeyvəçilik, tingçilik və yüksək əlavə dəyər yaradan bəzi məhsullar üzrə kiçik sahələr də uğurla fəaliyyət göstərə bilər.

Buna görə konsolidasiyanın məqsədi bütün torpaqları mexaniki şəkildə böyütmək deyil. Məqsəd məhsulun növünə, ərazinin xüsusiyyətlərinə və istifadə olunan texnologiyaya uyğun iqtisadi cəhətdən optimal istehsal vahidləri yaratmaq olmalıdır.

Torpaqların konsolidasiyası nəticəsində bir mülkiyyətçiyə məxsus, lakin müxtəlif ərazilərdə pərakəndə yerləşən sahələr daha əlverişli ölçüdə, formada və yerləşmədə yenidən təşkil edilə bilər. Burada məqsəd fermerin torpağını əlindən almaq və ya onun mülkiyyət hüququnu məhdudlaşdırmaq deyil, mövcud torpaq sahələrindən daha səmərəli istifadə üçün şərait yaratmaqdır. Xüsusilə vurğulanmalıdır ki, konsolidasiya məcburi xarakter daşımır və yalnız torpaq mülkiyyətçisinin razılığı əsasında həyata keçirilir. Qəbul edilmiş qanunvericilik dəyişikliklərində torpaqların ekvivalent bazar dəyərinin qorunması, verilən sahənin dəyəri əvvəlki torpaqdan aşağı olduqda isə qiymət fərqinin mülkiyyətçiyə ödənilməsi nəzərdə tutulur. Beləliklə, torpaq sahibinin mülkiyyəti üzərində sərəncam vermək hüququ saxlanılır, konsolidasiya isə onun razılığı və əmlak mənafelərinin qorunması prinsipləri əsasında həyata keçirilir.



Bununla yanaşı, qəbul edilmiş dəyişikliklər yalnız mövcud torpaq sahələrinin konsolidasiyasını deyil, onların gələcəkdə yenidən xırdalanmasının qarşısının alınmasını da nəzərdə tutur. Belə ki, kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqı, digər özgəninkiləşdirmə və vərəsəlik hallarında bölünməsinə yalnız yaranan hər bir yeni torpaq sahəsinin 5 hektardan az olmaması şərti ilə yol veriləcək. Bu ölçüdə bölgü mümkün olmadıqda torpaq onun üzərində yerləşən təsərrüfatla birlikdə satıla, vərəsələr isə öz paylarını pul şəklində ala bilərlər. Bu yanaşmanın əsas məqsədi kənd təsərrüfatı torpaqlarının nəsildən-nəslə daha kiçik və iqtisadi cəhətdən səmərəsiz hissələrə parçalanmasının qarşısını almaqdır. Bununla belə, həmin mexanizmin tətbiqi zamanı vərəsələrin və kiçik torpaq sahiblərinin qanuni mənafelərinin qorunması xüsusi əhəmiyyət daşıyacaqdır.

Konsolidasiya ilk növbədə texnikadan istifadə xərclərini azalda bilər. Vahid və düzgün formalı sahələrdə şumlama, səpin, gübrələmə, dərmanlama və məhsul yığımı daha sürətli həyata keçirilir. Suvarma və meliorasiya sistemlərinin qurulması asanlaşır. Fermerin torpağa nəzarəti, məhsulun mühafizəsi və logistikanın təşkili yaxşılaşır. Bütün bunlar məhsul vahidinə düşən xərclərin azalmasına və fermer gəlirlərinin artmasına şərait yaradır.

Məsələnin digər mühüm tərəfi aqrar emal sənayesidir. Emal müəssisələri fasiləsiz və standart keyfiyyətli xammala ehtiyac duyur. Pərakəndə və kiçik istehsal şəraitində eyni məhsulun keyfiyyəti, yetişmə vaxtı və tədarük həcmi arasında böyük fərqlər yarana bilər. Daha nizamlı istehsal sahələri isə fermerlə emal müəssisəsi arasında uzunmüddətli müqavilələrin bağlanmasını, məhsul istehsalının əvvəlcədən planlaşdırılmasını və dəyər zəncirinin daha dayanıqlı qurulmasını asanlaşdırır.

Bu baxımdan torpaqların konsolidasiyası yalnız torpaq siyasəti deyil. O, eyni zamanda ərzaq təhlükəsizliyi, aqrar emal, regional inkişaf və ixrac siyasəti məsələsidir. İstehsal sahələrinin səmərəli təşkili kənd təsərrüfatında yaradılan dəyərin artırılmasına və kənd əhalisinin gəlir imkanlarının genişlənməsinə xidmət edə bilər.

Almaniya, Niderland, Danimarka, Türkiyə və Şimali Makedoniya kimi ölkələrin təcrübəsi göstərir ki, uğurlu konsolidasiya yalnız torpaq sahələrinin sərhədlərinin dəyişdirilməsi ilə başa çatmır. Proses kənd yollarının çəkilməsi, suvarma və drenaj sistemlərinin yenilənməsi, kadastr məlumatlarının dəqiqləşdirilməsi, torpağa çıxışın yaxşılaşdırılması və kənd ərazilərinin ümumi inkişafı ilə əlaqələndirilir. Başqa sözlə, konsolidasiya xəritə üzərində aparılan sadə texniki dəyişiklik deyil, kənd təsərrüfatının istehsal məkanının yenidən təşkilidir.

Xarici təcrübənin Azərbaycan üçün əsas dərsi budur: torpağın sahəsini böyütmək hələ öz-özlüyündə inkişaf demək deyil. Konsolidasiya yol, suvarma, meliorasiya, logistika, aqrar xidmətlər və bazara çıxış imkanları ilə tamamlanmalıdır.

Qanunun qəbul edilməsi mühüm başlanğıcdır, lakin nəticəni əsasən tətbiq mexanizmi müəyyən edəcək. İlk növbədə mülkiyyətçilərin razılığı formal deyil, real olmalıdır. Fermer hansı torpağı verdiyini, hansı torpağı aldığını və bu dəyişiklik nəticəsində hansı iqtisadi üstünlüklər əldə edəcəyini əvvəlcədən aydın şəkildə bilməlidir.

Torpaqlar yalnız hektar göstəricisinə görə müqayisə edilməməlidir. Torpağın münbitliyi, su təminatı, yerləşməsi, relyefi, yola və bazara çıxışı onun real dəyərinə ciddi təsir göstərir. Suvarılan və yol kənarında yerləşən bir hektar torpaqla su təminatı zəif və əlçatmaz ərazidə yerləşən bir hektar torpağı bərabər hesab etmək olmaz. Buna görə qiymətləndirmə müstəqil, peşəkar və şəffaf aparılmalıdır.

Konsolidasiya layihələrinin əvvəlcə seçilmiş rayonlarda pilot qaydada həyata keçirilməsi daha məqsədəuyğun olardı. Bu, mümkün çatışmazlıqları vaxtında görməyə, fermerlərin münasibətini öyrənməyə və tətbiq qaydalarını təkmilləşdirməyə imkan verər. Pilot ərazilər seçilərkən torpaqların parçalanma səviyyəsi, suvarma imkanları, istehsal ixtisaslaşması və fermerlərin prosesdə iştirak marağı nəzərə alınmalıdır.

Kiçik torpaq mülkiyyətçilərinin prosesdən kənarda qalmasına da yol verilməməlidir. Konsolidasiya yalnız torpağın satılması və ya iri təsərrüfatın mülkiyyətinə keçməsi demək deyil. Mülkiyyət hüququ saxlanılmaqla torpaq mübadiləsi, uzunmüddətli icarə, kooperativ istehsal və birgə texnika xidmətləri kimi müxtəlif mexanizmlərdən istifadə etmək mümkündür.

Milli Məclisdə qəbul edilən dəyişikliklər Azərbaycan kənd təsərrüfatının uzun müddətdir mövcud olan struktur problemlərindən birinin həllinə real imkan yaradır. Düzgün və şəffaf tətbiq edilərsə, torpaqların konsolidasiyası məhsulun maya dəyərini azalda, fermer gəlirlərini artıra, emal sənayesinin xammal bazasını gücləndirə və kənd təsərrüfatının rəqabətqabiliyyətini yüksəldə bilər.

***Yunus SADIQOV,***
***ETN İqtisadiyyat institutunun şöbə müdiri, iqtisad elmləri doktoru***

# İqtisadiyyat və sosial həyat

## İlin sonuna dövlət büdcəsinin gəlirlərinin 39,3 milyard manat olacağı gözlənilir

**2026-cı ilin sonuna dövlət büdcəsinin gəlirlərinin 39 milyard 365 milyon manat təşkil edəcəyi gözlənilir ki, bu da təsdiq olunmuş proqnozla müqayisədə 756 milyon manat və ya 2 faiz çoxdur. AZƏRTAC xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin açıqladığı "2026-cı ilin dövlət və icmal büdcələrinin yarımillik icrasına dair arayış və ilin sonuna gözləntilər" sənədində bildirilir.**

Sənəddə qeyd olunur ki, dövlət büdcəsinin gəlirlərinin 43,4 faizi və ya 17 milyard 85 milyon manatı neft-qaz sektorunun, 56,6 faizi və ya 22 milyard 280 milyon manatı isə qeyri-neft-qaz sektorunun payına düşəcək. Təsdiq olunmuş göstəricilərlə müqayisədə neft-qaz sektoru üzrə gəlirlərdə 650 milyon manat və ya 4 faiz, qeyri-neft-qaz sektoru üzrə gəlirlərdə isə 106 milyon manat və ya 0,5 faiz artıq icra gözlənilir.

Dövlət büdcəsinin gözlənilən gəlirlərinin 17 milyard 760 milyon manatı və ya 45,1 faizi vergilər və rüsumlar üzrə daxilolmaların, 6 milyard 762 milyon manatı və ya 17,2 faizi gömrük rüsumları və idxala görə vergi daxilolmalarının, 12 milyard 835 milyon manatı və ya 32,6 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfertin, 1 milyard 21 milyon manatı və ya 2,6 faizi büdcə təşkilatlarının büdcədənkənar gəlirlərinin, 987 milyon manatı və ya 2,5 faizi sair gəlirlərin payına düşür.

Vergi və rüsumlar üzrə daxilolmaların məbləği 17 milyard 760 milyon manat gözlənilir ki, bu da cari ilin təsdiq olunmuş göstəricisinə nisbətən 850 milyon manat və ya 5 faiz çoxdur. Qeyd olunan vəsaitin 4 milyard 250 milyon manatı və ya 23,9 faizi neft-qaz sektorunun, 13 milyard 510 milyon manatı və ya 76,1 faizi isə qeyri-neft-qaz sektorunun payına düşəcək.

Neft-qaz sektoru üzrə gözlənilən vergi daxilolmalarının 41,2 faizini və ya 1 milyard 750 milyon manatını Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən ödənilən vergilər, 11,8 faizini və ya 500 milyon manatını "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi, 47,1 faizini və ya 2 milyard manatını isə "Şahdəniz" layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi təşkil edir.

2026-cı il dövlət büdcəsinin gözlənilən daxilolmalarının hesablanması zamanı Azərbaycan qazının bütün istiqamətlər üzrə 1000 kubmetrinin orta satış qiyməti 35 dollar artırılaraq 296 dollar müəyyən edilib. Qiymət artımı ilə əlaqədar "Şahdəniz" layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi daxilolmalarının 400 milyon manat və ya 25 faiz artacağı gözlənilir.

Cari ilin dövlət büdcəsində vergi orqanlarının xətti ilə qeyri-neft-qaz sektoru üzrə daxilolmalar 13 milyard 510 milyon gözlənilir ki, bu da cari il üçün təsdiq olunmuş göstəricisi ilə müqayisədə 200 milyon manat və ya 1,5 faiz çoxdur.

2026-cı ilin sonuna büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların 1 milyard 21 milyon manat olacağı gözlənilir ki, bu da təsdiq olunmuş göstərici ilə eynilik təşkil edəcək. Dövlət əmlakının, özəlləşdirilmiş dövlət müəssisə və obyektlərinin altındakı torpaq sahələrinin icarəyə verilməsindən daxilolmaların 46 milyon manat olacağı proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəricidən 6 milyon manat və ya 15 faiz çoxdur. Sair daxilolmaların isə 941 milyon manat səviyyəsində olacağı və təsdiq olunmuş göstərici ilə eynilik təşkil edəcəyi gözlənilir. Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfert (12 milyard 835 milyon manat) üzrə daxilolmaların təsdiq olunan proqnoz göstəricisi ilə eyni səviyyədə qalacağı nəzərdə tutulur.

### Naxçıvanın yeni ünvanları

## Muxtar respublikanın ilk DOST-u

**Prezident İlham Əliyev regionlara səfərləri zamanı yaranmış ənənəsinə sadiq qalaraq Naxçıvanda da yeni obyektlərin təməlini qoydu və açılışını etdi. Bu səfər bir sıra ilklərlə də yadda qaldı. O cümlədən Naxçıvan Regional DOST Mərkəzinin açılışı oldu. Bu, muxtar respublikanın ilk DOST-udur.**



Naxçıvan Regional DOST Mərkəzinin açılışı dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq DOST xidmətləri şəbəkəsinin ölkəboyu genişləndirilməsi istqamətində növbəti mühüm addımdır. Bu o deməkdir ki, Azərbaycan dövləti bütün sahələrdə olduğu kimi, sosial sahədə də ölkədə müasir, innovativ xidmətlər infrastrukturunun tam formalaşmasını əsas prioritetlərdən biri hesab edərək bu istiqamətdə mühüm irəliləyişlərə imza atır.

Xatırladaq ki, DOST mərkəzlərinin yaradılması dövlət sosial xidmətlərinin göstərilməsində bu gün dünyada qabaqcıl təcrübələr sırasında olan uğurlu islahat nümunəsidir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial sahələr üzrə xidmətlərin "bir pəncərə"dən, müasir və çevik, tam şəffaf şəkildə, vətəndaş məmnunluğuna uyğun təqdim olunmasına imkan verib. DOST modelinə keçilməsi sosial sahədə köklü islahat tədbiri, aparılan sosial islahatlar proqramının ən mühüm nailiyyətlərindən biridir və Azərbaycanın bu sahədə yeni brendinə çevrilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə DOST Agentliyi və ilk DOST mərkəzinin acılışı 7 il əvvəl, 2019-cu il mayın 9-da olub. Sonralar yeni DOST mərkəzləri, filialları və məntəqələri yaradıldı. Ötən dövrdə Bakı şəhərində 5 Regional DOST Mərkəzi, habelə Abşeron, Bərdə rayonlarında Regional DOST Mərkəzləri istifadəyə verilib. Naxçıvan Regional DOST Mərkəzinin açılışı ilə ölkəmizdə DOST mərkəzlərinin sayı 8-ə çatıb. Eyni zamanda hazırda Şuşada, Tərtərdə, Neftçalada, İmişlidə DOST qəbul şöbələri fəaliyyət göstərir, habelə Kəlbəcər ilə Füzulidə qəbul məntəqələri, Zəngilan rayonunun Ağalı kəndində isə Smart DOST məntəqəsi vətəndaşlara xidmət göstərir.

DOST mərkəzləri şəbəkəsinin bütün ölkəni əhatə etməsi üçün işlər hazırda davam edir. Ümumilikdə 2030-cu ilədək ölkə üzrə 18 DOST mərkəzinin, o cümlədən 60 şöbə və məntəqədən ibarət geniş xidmət şəbəkəsinin formalaşdırılması, o cümlədən 2026-2027-ci illərdə Naxçıvan MR-in bütün rayon mərkəzlərində DOST qəbul şöbələrinin yaradılması nəzərdə tutulur.

Dövlətimizin başçısı Naxçıvanda Azərbaycan Televiziyasına müsahibəsi zamanı Naxçıvan Regional DOST Mərkəzinin açılışını da qeyd edib: "Bu gün, eyni zamanda sosial təminatla əlaqədar DOST Mərkəzinin açılışını qeyd edə bilərəm. Onun yanında "ASAN xidmət" mərkəzi dayanır. O da vaxtilə mənim göstərişimlə yaradılmışdır ki, insanlara daha gözəl xidmət göstərilsin".

Naxçıvan Regional DOST Mərkəzinin açılışı zamanı əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev mərkəzdə yaradılmış şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verərkən bildirilib ki, mərkəzdə əhaliyə 164 sosial xidmət göstəriləcək. Ümumilikdə mərkəzdə 117 işçi və 50 könüllü fəaliyyət göstərəcək və burada gün ərzində orta hesabla 500-600 vətəndaşın qəbulu nəzərdə tutulur. Mərkəz pensiya, əmək və məşğulluq, sosial müavinətlər, əlillik, övladlığagötürmə və digər sosial xidmətlərin Naxçıvan MR sakinlərinə vahid məkanda, şəffaf formada, rahat, operativ və əlçatan şəkildə təqdim edilməsinə imkan yaradır.

Qeyd edək ki, Naxçıvan Regional DOST Mərkəzində tibbi-sosial ekspertiza və əlilliyi olan şəxslərin fərdi ehtiyaclarına uyğun reabilitasiya xidmətləri və vasitələri ilə təmin edilmələri üçün ixtisaslaşmış reabilitasiya müəssisələrinə göndərişlərin verilməsi işləri də aparılacaq. Bu da reabilitasiya xidmətlərinin Naxçıvan MR sakinləri üçün daha əlçatan olmasına imkan verir.

Son illər dövlət başçısının tapşırıqları əsasında aparılan sosial islahatlar çərçivəsində bu sahədə də mühüm addımlar atılıb. Müasir reabilitasiya sistemi qurulub, yeni xidmətlərin tətbiqi nəticəsində reabilitasiya xidmətləri göstərilənlərin illik sayında 2018-ci ilə nisbətən 7 dəfədən çox artıma, sosial xidmətlərin dairəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsinə nail olunub. Dövlət büdcəsi hesabına əliliyi olan şəxslərə verilən reabilitasiya vasitələri növlərinin sayı 57-dən 130-a çatdırılıb. Təkcə bu il əlilliyi olan şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müxtəlif növlərdə 318 min reabilitasiya vasitəsilə təmin edilib.

Eyni zamanda 2016-cı ilin Aprel döyüşlərində yaralanmış hərbçilərimiz Heydər Əliyev Fondunun layihəsi çərçivəsində qısa zaman ərzində Almaniya, İslandiya, İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksəktexnologiyalı məhsulları ilə təmin ediliblər. Möhtəşəm Zəfərimizlə yekunlaşan Vətən müharibəsindən sonra dövlət başçısının tapşırığı ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı icra edilən genişmiqyaslı sosial dəstək paketinin bir istiqaməti kimi postmüharibə dövründə 500-dən çox hərbçimiz 624 yüksəktexnologiyalı protezlə təmin olunublar.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində əlilliyi olan şəxslər, digər həssas qrupların yaradıcı potensialı, bacarıqları inkişaf etdirilir. Mərkəz onların cəmiyyətə inteqrasiya imkanlarını artırır, inklüziv cəmiyyətin inkişafına mühüm töhfə verir. 2021-ci ilin oktyabr ayında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə açılışı olan bu Mərkəz Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər əhatəli, çoxşaxəli fəaliyyət istiqamətlərini özündə birləşdirir və ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır. Mərkəzdə təlimlərə cəlb edilən həssas qruplardan olan şəxslərin yaradıcılıq potensiallarının üzə çıxarılması və iqtisadi fəallıqlarının dəstəklənməsi məqsədilə yaradılmış "dostart.az" portalı vasitəsilə onların əl işlərinin onlayn satışı həyata keçirilir.

Naxçıvan MR-də də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılması nəzərdə tutulur. Naxçıvan Regional DOST Mərkəzinin açılışı zamanı Prezidentə həmin mərkəzin layihəsi barədə də məlumat verilib. Əlilliyi olan şəxslərə hazırda 13 istiqamət üzrə göstərilən sosial bacarıqların inkişafı xidmətlərinin Naxçıvan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində daha da genişləndirilərək 20-yə çatdırılacağı qeyd edilib.

Deyilənlərə əlavə edək ki, son illər Azərbaycanda həyata keçirilən sosial islahatlar müxtəlif beynəlxalq təşkilatlar tərəfindən 300-dən artıq mükafat və sertifikata, o cümlədən bu il BMT-nin "Hamı üçün inklüziv və bərabər sosial təminat xidmətləri" təşəbbüsünə görə Dövlət Xidmətləri Mükafatına layiq görülüb. Həmçinin DOST modeli dünyanın qabaqcıl təcrübələri sırasına daxil edilib və bir sıra ölkələr (Moldova, Özbəkistan və Serbiya) DOST konsepsiyasına böyük maraq göstərirlər. DOST Agentliyi ötən dövrdə 60-dan çox beynəlxalq mükafat və sertifikatla təltif olunub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

### İqtisadi icmal

## Qeyri-neft-qaz məhsulları ixracında aqrar sektorun çəkisi artır

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın 2026-cı ilin iyul sayında son rəqəmləri təqdim edib. İcmala əsasən, bu ilin yanvar-iyun aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,9 faiz artaraq 1,9 milyard dollar təşkil edib. Cari ilin iyun ayında isə qeyri-neft sektoru üzrə ixrac (qeyri-monetar qızıl istisna olmaqla) ötən ilin eyni dövrü ilə müqayisədə 18,2 faiz artıb.**



Qeyri-neft sektorunun inkişafına təkan verən sahələrdən biri kənd təsərrüfatıdır. Belə ki, aqrar islahatlar kənd təsərrüfatı məhsullarının həcminin artmasına imkan yaradıb. Xüsusən dövlət başçısının ənənəvi sahələrin dirçəldilməsi barədə imzaladığı sərəncamlar önəmli rol oynayıb. Həmin sənədlərə uyğun olaraq ənənəvi sahələrin dirçəldilməsi üçün fermerlərə əlavə güzəştlər edilib. Bundan başqa, fermerlərin dövlət dəstəyi ilə təsərrüfatlarını sığortalaması imkanının yaradılması da stimullaşdırıcıdır.

Fermerlərə olunan güzəştlər nəticəsiz qalmayıb. Bunun sayəsində son bir neçə ildə aqrar sektorda meyvə-tərəvəzin istehsalı və ixracı artıb. Statistik rəqəmlər də bunu təsdiq edir. Belə ki, qeyri-neft-qaz ixracında kənd təsərrüfatı məhsullarının çəkisi ildən-ilə artır.

Hesabat dövründə yeyinti məhsulları üzrə ixrac 19,4, qeyri-yeyinti məhsullarının ixracı (qeyri-monetar qızıl istisna olmaqla) 17,3 faiz artıb. İlin ilk yarısında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 3,4, pambıq iplik 2,1 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 50, pambıq lifi 26,3, meyvə-tərəvəz 18,9, çay 19,4, spirtli və spirtsiz içkilər isə 2,9 faiz artıb. Cari ilin yanvar-iyun aylarında aqrar məhsullar üzrə ixrac 23,9, aqrar-sənaye məhsulları üzrə ixrac 35,3 faiz çoxalaraq yüksək artım göstərib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 26,6 faiz artaraq 759,8 milyon dollara bərabər olub.

Qeyd olunan dövrdə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci, tomat ikinci, mis filizləri və konsentratları isə üçüncü yerdə qərarlaşıb. İyun ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında tomat birinci, qızıl ikinci, çiyələk isə üçüncü yeri tutub. Bu ilin yanvar-iyun aylarında (qeyri-monetar qızıl istisna olmaqla) ən çox qeyri-neft sektoruna aid mal Rusiya Federasiyasına, Türkiyəyə, Gürcüstana, İsveçrəyə, Ukraynaya ixrac edilib. İyun ayında isə əsas ticarət partnyorlarımız Rusiya Federasiyası, Gürcüstan, Türkiyə, İsveçrə, Amerika Birləşmiş Ştatları olub.

İlin birinci yarısında qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "Prime Export" MMC, "Agrarco" MMC, "Silk Way Aviaşirkəti" MMC, "Vvest Stream" MMC, "Tabaterra" MMC və "P-Aqro" MMC.

Qeyri-neft sektoru üzrə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına "Socar Polymer" MMC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: "Azergold" QSC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərbaycan Hava Yolları" QSC, "Azərenerji" ATSC, "Naxçıvan Enerji" MMC və "Socar Cape" MMC.

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir. Bu ilin 6 ayında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 33 ölkəsindən olan 90-a yaxın şirkətə 13,1 milyon dollar dəyərində telekommunikasiya xidmətləri göstərilib. Bu dövr ərzində formalaşan ümumi gəlirlərin 63 faizini ixrac əməliyyatları təşkil edib. Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində Birləşmiş Krallıq, Lüksemburq, Türkiyə, Pakistan və Misir qərarlaşıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## 7 ayda 1 milyon 68 min şəxsə 1 milyard 314 milyon manat müavinət və təqaüd ödənib

### Hazırda 4 minədək uşağa sosial xidmət və reabilitasiya dəstəyi göstərilir

**Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu ilin yanvar-iyul aylarında 1 milyon 68 min şəxsə 1 milyard 314 milyon manat müavinət və Prezidentin aylıq təqaüdü ödənilib.**

Onlardan:

· 505 min nəfərə müavinət olaraq 738 milyon manat;

· 405 min nəfərə Prezident təqaüdü olaraq 474 milyon manat;

· 158 min nəfərə sosial sığorta hesabına müavinət olaraq 102 milyon manat ödəniş həyata keçirilib.

Ödənilən vəsait ötən ilin müvafiq dövrünə nisbətən müavinətlər üzrə 13 faiz, təqaüdlər üzrə 14 faiz, sosial sığorta hesabına müavinətlər üzrə 8 faiz çox olub.

Bu ilin 7 ayında daha 86 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən isə 966 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı başqa bir məlumatda bildirilir ki, Sosial Xidmətlər Agentliyinin müəssisə və mərkəzlərində, habelə qurumun sifarişləri üzrə yaradılmış günərzi və reabilitasiya mərkəzlərində hazırda 4 minədək uşağa xidmətlər göstərilir.

Xüsusi qayğıya ehtiyacı olan, o cümlədən əlilliyi olan həmin uşaqlardan 882 nəfəri stasionar, 2936 nəfəri yarımstasionar, 165 nəfəri ambulator formada xidmətlərlə təmin edilir.

Onların reabilitasiya potensiallarının reallaşdırılması, funksional bacarıqlarının inkişafı, gündəlik həyata və cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə işlər aparılır.

Habelə uşaqların maraq və qabiliyyətləri nəzərə alınaraq müxtəlif dərnəklər vasitəsilə özünəxidmət qabiliyyətlərinin artırılması və təxəyyüllərinin inkişaf etdirilməsi üçün xidmətlər göstərilir.





# Mədəniyyət





● Milli-mədəni irsimiz

## Odun müqəddəsləşdiyi məbəd - "Atəşgah"

**Tarixi-mədəni irsinin zənginliyi və çoxəsrliliyi məmləkətimizin qədim yaşayış məskənlərindən biri olmasının təsdiqidir. Minilliklərdən, yüzilliklərdən soraq verən bu irsi tədqiq etmək, qorumaq, onun dəyərini bilmək keçmişə ehtiramımız, gələcəyə məsuliyyətimizdir.**



Bu baxımdan Prezident İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi tariximizə, bu günümüzə və sabahımıza diqqətin və qayğının nümunəsidir. Sənəddə ölkənin çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi əsas məqsədlər sırasında göstərilir.

Azərbaycan memarlığının dünya əhəmiyyətli nümunələrindən biri də "Atəşgah" kompleksidir. Sözügedən sərəncamda bildirilib: "Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, "Atəşgah" kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycan memarlığının rəmzlərinə çevrilmişdir".

Abşeron yarımadasında - Suraxanı kəndi yaxınlığında yerləşən "Atəşgah" deyilən məbəd əsrlər boyu yalnız bizim üçün müqəddəs olmayıb. Bu alov məbədini müxtəlif dövrlərdə zərdüştlər, hindustlar və siqhlər ibadətgah hesab ediblər.

Adı "Alov evi" və ya "Alov yeri" mənasını ifadə edən, tarixi mənbələrə əsasən, qədim atəşpərəstlər məbədinin qalıqları üzərində, təbii qazın çıxdığı əbədi məşəlin yerində XVII-XVIII əsrlərdə inşa edilən məbədin 24 hücrə və mərkəzi səcdəgahı mövcuddur. Tarixçilər müxtəlif vaxtlarda tikilmiş hücrələrin və ibadətgahın XVII əsrin sonlarında ümumi hasara alındığını qeyd edirlər.

Tarixi mənbələrdə erkən Orta əsrlərdən etibarən Bakı və Abşeron ətrafında sönməz alovların mövcudluğundan bəhs olunub. Araşdırıcı Sara Aşurbəyli ən erkən məlumatları Bizans tarixçisi Panili Priskin verdiyini qeyd edib. Panili Prisk bildirib ki, farslar tərəfindən təqib olunan hun qoşunları ölkəni qarət edərək Midiyadan Skifiyaya "sualtı qayalarından alov qalxan" başqa yolla qayıdıblar. N.Xanıkov bu məlumatın "şəksiz, əbədi Bakı odlarına" aid olduğunu bildirib. Ondan savayı, bir çox səyyah və alimlər, eləcə də XVIII əsrdə İngiltərənin görkəmli ictimai xadimi, səyyahı və publisisti Conas Hanuey (1744) də Bakı ətrafında ayrı-ayrı dövrlərdə tikilmiş müxtəlif tipli qədim od məbədlərinin tam komplekslərindən bəhs edib.

Düma, Kempfer, Villot, Berezin, Mendeleyev və digər məşhurlar da bu məbədə gəliblər. Aleksandr Düma öz təəssüratlarını "Qafqaz səfəri" əsərində belə qələmə alıb: "Nahar qurtaran kimi qapıda hazır dayanan faytonlara minib məşhur Atəşgaha getdik. Bakı Atəşgahı, az səyahət edən fransızlar istisna olmaqla, bütün aləmə bəllidir. ...Biz tamamilə alova bürünmüş qapıdan həyətə girdik. Böyük dördkünc həyətin ortasında günbəzli səcdəgah ucalır. Səcdəgahın tən ortasında əbədi alov şölələnir".

Görkəmli rus kimyaçısı Dmitri Mendeleyev isə rus taciri Konerevin 1855-ci ildə "Atəşgah"ın arxasında tikdirdiyi kerosin zavodunda çalışıb. Həyat yoldaşına məktubunda o, "Atəşgah"ın çox maraqlı məbəd olduğunu, indiyəcən belə məbəd görmədiyini yazıb.

Məmləkətimizə digər ölkələrdən gələn tacirlər də çox vaxt müqəddəs yer kimi "Atəşgah"ı ziyarət edib, bir neçə gün orada qalıblar. XVI-XVII əsrlərdə Azərbaycandan keçən məşhur İpək yolu ilə ölkəmizə gələn tacirlər öz vətənlərinə döndükdə Suraxanıda yerdən çıxan təbii alovdan da danışıblar.

Məlumata əsasən, məbədin ən erkən tikilişi 1713-cü ilə aiddir. Kitabəyə əsasən, 1810-cu ildə tacir Kançanaqaranın hesabına tikilmiş mərkəzi altar ən yeni tikili hesab edilir. İbadətgahın ətrafında XVIII əsrdə bir-birinə bitişik ibadət zalları, hücrələr və karvansaray tikilib. Beşguşəli həyətin mərkəzində rotonda-pavilyon yerləşir. Rotonda kompleksin əsas alov məbədidir və bütün qurbanlar həmin məbəddə yanan müqəddəs alova gətirilirdi.

Məbəd yaxınlığında yerləşən daşlarla doldurulmuş dərin dördbucaqlı quyuda alovlanan odda vəfat etmiş dindarların cəsədləri yandırılıb. Məbədin ərazisində yaşayan dindar rahiblər cəmiyyətdən ayrılaraq burada müqəddəs alov vasitəsilə bədənlərini və ruhlarını təmizlədiklərinə inanıblar. Rahiblər boyunlarından ağırlığı 30 kiloqrama çatan zəncirlər asıblar. Zəvvarların ianələri hesabına yaşayan məbəd kahinləri inanıblar ki, ölümdən sonra insanın ruhu dirilərək yerə qayıdacaq. Onlar güman ediblər ki, ruhun hörmətli adam və ya hansısa heyvan cildində qayıtması insanın sağlığında topladığı müsbət karmaların miqdarından asılıdır.

Məbəd kompleksi XIX əsrin əvvəllərində artıq dövrümüzdəki görünüşündə olub. Əsasən hinduslar tərəfindən ibadət edilsə də, məbədin memarlığı ənənəvi hinduizm məbədlərinin memarlığından fərqlidir. Tədqiqatçılar bildirirlər ki, ümumi memarlıq xüsusiyyətlərinə görə o, Azərbaycanın şəhər karvansaralarını xatırladır. Yerli memarlıq ənənələri əsasında tikilmiş abidə qədim alov altarlarının xüsusiyyətini də əks etdirir. Giriş üzərində Şirvan-Abşeron memarlıq məktəbi üçün xarakterik olan qonaq otaqları - balaxana tikilib.

Məbəddəki 20 qiymətli daş kitabə hücrənin üstündə yerləşdirilib. Hər kitabədə otaqların neçənci ildə və hansı tacir tərəfindən tikilməsi, hind tanrılarının adları qeyd edilib. Kitabələrin bəzisinin sonunda yazılma tarixi var. Müəyyən olunub ki, kitabələr XVIII-XIX əsrlərə aiddir. Ciddi zədələnmiş bəzi hinduizm kitabələrini oxmaq mümkün olmayıb. Atəşgahdakı yeganə zərdüşt kitabəsi dörd sətirlik şeir formasında yazılıb.

1855-ci ildə "Atəşgah" yaxınlığında zavod inşa olunduğundan məbədin təbii alovları tədricən zəifləyib. 1902-ci il yanvarın 6-da isə atəşgahın sonuncu təbii alovu sönüb.

XX əsrin əvvəllərində tədqiqatçı M.S.Sayapin Hövsan sakinindən aldığı məlumata əsaslanaraq XIX əsrin ikinci yarısında məbəd ətrafında hələ də oda ibadət edən yaşlıların yaşadıqlarını, onların övladlarının isə artıq müsəlman olduqlarını qeyd edib.

Məbəd 1925-ci ildən sonra demək olar ki, tərk edilib. Yalnız 1975-ci ildə burada ətraflı restavrasiya işləri aparılıb və "Atəşgah" yenidən ziyarət üçün açılıb. 2007-ci ildə məbəd yenidən restavrasiya olunub. Azərbaycan Prezidentinin sərəncamına əsasən, kompleks ətrafında açıq səma altında muzey yaradılıb, kompleks Dövlət Tarix-Memarlıq Qoruğu elan edilib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Maarifçilik hərəkatı

## Ömrünü qadınların savadlanmasına həsr etmişdir

**Bütün dövrlərdə cəmiyyətin inkişafında maarifləndirmə mühüm rol oynayır. Buna görə də ziyalı insanlar maariflənmə işinə böyük önəm verirlər.**



Azərbaycanda maarifçilik hərəkatı XIX əsrin ortalarından başlayaraq müxtəlif formalarda inkişaf etmişdir. Diqqətçəkən odur ki, maarifçilik hərəkatında kişilərlə bərabər savadlı, bilikli qadın ziyalılar da fəal iştirak edərək ön sıralarda addımlamışlar. Məqsədlərinə çatmaq üçün bu işdə öz vəsaitlərini belə əsirgəməmişlər.

Xalqının maariflənməsi işində fəal iştirak etmiş qadınlarımızdan biri də Gövhər hacı Məcid qızı Cəfərzadə (Gövhər Şövqiyyə) olmuşdur. Dövrünün savadlı, bilikli qadınlarından biri kimi tanınan Gövhər xanım maarifçi və publisist kimi də fəaliyyət göstərmişdir. Məqsədi, amalı savadsızlığın aradan qaldırılması və insanların maarifləndirilməsi olan Gövhər Cəfərzadə XX əsrin əvvəllərində, daha dəqiq desək, 1912-ci ildə böyük əziyyətlər bahasına Şamaxıda şəxsi vəsaiti hesabına ikisinifli qız məktəbi açmağa nail olmuşdur. Bununla da qadın maarifçiliyinin ilk nümayəndələrindən biri kimi tarixə düşmüşdür.

Təəssüflər olsun ki, bu maarifçi qadın haqqında mənbələrdə məlumat o qədər də çox deyil. Əldə olan məlumatlardan öyrəndiklərimiz yalnız odur ki, Gövhər Cəfərzadə 1883-cü ildə Şamaxı şəhərində anadan olub. Qızlar üçün məktəb olmadığına görə ilk təhsilini evdə alıb. Anası Əsəd xanım elmə, biliyə meyilli qadın olub. Buna görə də həm öz qızının, həm də digər qızların təhsil almasına müsbət yanaşıb. Qızı məktəb açanda anası Əsəd xanım da onun maarifçilik ideyalarına hörmətlə yanaşıb, bacardığı qədər fəaliyyətinə dəstək olub, kömək göstərib. Amma həmin dövr başqa bölgələrdə olduğu kimi, Şamaxıda da qızların təhsil alması üçün elə də əlverişli şərait yox idi. Şəhərdə ayrıca olaraq qız məktəbi fəaliyyət göstərmirdi. Şamaxı camaatının gələcəyi üçün narahat olan maarifpərvər ziyalılar oğlanlarla bərabər qızların da təhsil almasını, elm öyrənməsini istəyirdilər. Onlar xalqın, cəmiyyətin tərəqqisini elmdə, bilikdə görürdülər. Ona görə də qızların da təhsil alması, savadlanması üçün zəruri addımlar atmağa çalışırdılar.

Belə ziyalılardan biri də Gövhər Şövqiyyə idi. Qızlar məktəbinin açılmasına, fəaliyyət göstərməsinə dövrünün tanınmış şair və yazıçıları, ömürlərini xalqının yolunda şam kimi əritmiş Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Qafur Rəşad Mirzəzadə, Sultan Məcid Qənizadə və Mahmud bəy Mahmudbəyov kimi maarifçi ziyalılar böyük dəstək vermişdilər. Gövhər xanımın əsasını qoyduğu "Məktəbi-Şövqiyyə" məktəbi 1918-ci ilə qədər fəaliyyət göstərmişdir.

Məktəb əvvəlcə kiçik bir otaqda yerləşib. İlk günlər gələnlər az olsa da, sonrakı günlər burada 20-dən çox qız təhsil almağa başlayıb. Məktəbdə ana dili, hesab, tarix və coğrafiya fənlərindən dərslər keçirilib. Gövhər xanım dərslərdə "Xacəyi-sibyan", "Gülzar", "Əlifba" və "Balalara hədiyyə" kimi kitablardan istifadə edər, şagirdlərə şeir və hekayələr də əzbərlətdirərmiş. Təhsil almağa gəlmiş qızlar şeirləri maraqla əzbərləyərmişlər. Gövhər Şövqiyyə dərs zamanı musiqi və səhnəciklərdən də istifadə edərmiş. Təhsil almağa böyük maraq göstərən qızlar Mirzə Ələkbər Sabirin və Abbas Səhhətin şeirləri əsasında mahnı oxumağı da xoşlayarmışlar.

Dərslərdən sonra Gövhər xanım tez-tez məktəbdə oxuyan qızların valideynləri ilə görüşər, övladlarının təhsili və tərbiyəsi ilə bağlı söhbətlər apararmış. Növbəti dərslərdə valideynlərinin verdiyi təklifləri nəzərə alarmış. Çalışarmış ki, məktəbinə gələn qızlar dərslərini yaxşı oxusunlar, elmə, biliyə hərtərəfli yiyələnsinlər. Gövhər xanımın çalışqanlığı və yorulmaz fəaliyyəti nəticəsində açdığı məktəb Şamaxıda qadınların maariflənməsində mühüm rol oynamışdır.

Gövhər Şövqiyyə yalnız dərs deməklə kifayətlənmirdi. Həmin dövrdə nəşr olunan dövri mətbuatda işıqlı maarifçilik fikirləri ilə çıxış edirdi. 1911-1912-ci illərdə Gövhər xanımın "Məktəb" və "İşıq" jurnallarında maarif, mədəniyyət və qadın azadlığı məsələlərinə həsr olunmuş məqalələri dərc edilmişdi. Həmin məqalələr dövrün tanınmış ziyalıları tərəfindən rəğbətlə qarşılanırdı.

Gövhər Şövqiyyənin pedaqoji fəaliyyəti, məktəb açması, maarifçiliklə məşğul olması, qızlara təhsil verməsi bəzi dindar mühafizəkarların narazılığına səbəb olmuşdu. Bu narazılıq o həddə çatmışdı ki, məktəb bir müddət gizli fəaliyyət göstərmişdi. Bundan təngə gələn Gövhər xanım işlərini qaydasına qoymaq üçün Qafqaz müftisinin yanında imtahan verərək məktəbin rəsmi fəaliyyətinə icazə almışdı. Amma qara qüvvələr müxtəlif bəhanələrlə məktəbin fəaliyyətinə maneçilik törətməkdə davam etmişlər. Buna görə məktəb uzun müddət fəaliyyət göstərə bilməmişdi. Bir müddətdən sonra isə Gövhər xanım qızlar məktəbini bağlamağa məcbur olmuşdu.

Açdığı qızlar məktəbi bağlandıqdan sonra da Gövhər xanım maarifləndirmə işlərindən qalmamışdı. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gövhər Cəfərzadə ali təhsil almışdı. Bundan sonra Ucarda müəllimlik etmiş, bir müddətdən sonra Bakıya qayıtmışdı. Ömrünün sonuna kimi maarifçilik işindən ayrılmayan Göhvər xanım 1924-1936-cı illərdə Bakıda Azərbaycan dili və ədəbiyyat müəllimi işləmiş qadınların savadlı, bilikli olmasına çalışmışdı. Bu məqsədlə də savad kurslarında qadınlara dərs demiş, onlara bilik vermiş, elm öyrətmişdi.

Ömrünü xalqının maariflənməsi işinə həsr etmiş Gövhər Cəfərzadə 1936-cı ildə dünyasını dəyişmişdir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Dincəlmək üçün uzağa getməyək

## Yenidənqurmadan sonra Bakı parkları əsl istirahət yeridir

### Yayın qızmar günlərində bu yerlərin əvəzi yoxdur

**Yayın qızmar günləri bir az səngisə də, paytaxt sakinlərinin çoxu istilərdən yayınmaq üçün xüsusən də şənbə və bazar günləri park və istirahət güşələrinə, Bakıətrafı kənd və qəsəbələrdəki bağ evlərinə üz tuturlar.**





Qeyd edək ki, yay mövsümündə istər bölgələrdən, istərsə də xarici ölkələrdən Bakıya gələnlərin də sayı çox olur. Çünki Bakı və onun ətraf qəsəbələri gündən-günə gözəlləşir, abadlaşır, insanların sosial tələblərinin hərtərəfli təmini və istirahətlərinin səmərəli keçməsi üçün lazımi infrastruktur yaradılır.

Desək də, deməsək də, Bakının gəzməli, istirahət etməli yerlərindən söhbət düşəndə ilk növbədə Xəzərin mirvari boyunbağısı adlandırılan Sahil bağı - Bakı bulvarı yada düşür. 108 ilə yaxın yaşı olan 3,5 hektarlıq bu bağ ölkə başçısının şəxsi təşəbbüsü və sərəncamına əsasən, genişləndirilərək 16 hektara çatdırılıb. Görülən iş, yaradılan şərait göz oxşayır. Gəzintidə olanların əksəriyyəti sahil bağının gecə füsunkarlığından, gəzməli və görməli yerlərindən, Vətən müharibəsinin qələbəsindən, rəşadətindən söhbət açan Hərbi Qənimətlər Parkını və Zəfər muzeyini ziyarət etməkdən zövq alırlar. Dünyada turizm brendinə çevrilən bu ünvan istirahət edənlərə iftixar və qürur duyğuları yaşadır.

Gəzintidə olanlardan biri - Bakı şəhər sakini Əməl Kərimova, qızı Firuzə, oğlu Hüseyn və ali məktəbdə təhsil alan nəvələri ilə görüşdük. Əməl xanım bildirdi ki, qızı Firuzə Almaniyada yaşayır, təzə gəlib, hər il yay aylarını mütləq Bakıda keçirir. Firuzə xanım Bakının bugünkü gözəlliyindən, füsunkarlığından ağızdolusu danışdı. "Bakı fontanlar və yaşıllıqlar şəhəridir, çox gözəldir. Sahil bağı Bayraq meydanından Ağ şəhərdən cənnətməkan bir ərazidir". Bulvardan, eləcə də şəhərin görməli yerlərindən mobil telefonlarıma çəkdiyim şəkilləri Almaniyada dostlarıma da göstərəcəyəm", - dedi.

Bakını gözəlləşdirən, onu belə ürəyəyatımlı edən şəhərdə aparılan möhtəşəm quruculuq işləri, ətraf qəsəbələrdə yaradılmış 53-dən çox yeni, 91-dən çox əsaslı təmir olunmuş mədəniyyət və istirahət parklarıdır. Bu parklar, bağlar Bakı sakinlərinin və qonaqların əsl istirahət məkanına çevrilib. Belə ünvanlardan biri də Bakı Konqres Mərkəzinin qarşısında salınmış istirahət parkıdır. Ümumi sahəsi 7 hektardan çox olan parka gəlib-gedənlərin sayı günbəgün artır. Ərazisində 300-dən çox müxtəlif növ ağac, 50 mindən artıq dekorativ gül və kol bitkiləri əkilib. Burada çinar, tut, dəmirağacı, söyüd və palıd ağaclarının bir neçə növləri var. İtaliyadan gətirilmiş bitki və ağaclar üstünlük təşkil edir.

İstirahət parkında olarkən paytaxt sakini Ruslan Bədəlovla həmsöhbət olduq. O dedi:

- Mən istirahətimi, demək olar ki, bu parkda keçirirəm. Bura nəinki mənim, ümumiyyətlə, minlərlə vətəndaşımızın istirahət yeridir. Ərazidə 4 müxtəlif istirahət zonası var. İdman zonasında müxtəlif trenajorlar və qurğular qoyulub. Uşaqlar üçün xüsusi zonalar yaradılıb. Ərazidə fəvvarə və 3 göl var. Burada ilin bütün fəsillərində fəaliyyət göstərən buz meydançası da salınıb. Bu istirahət mərkəzi nəinki biz gənclərin, yaşlı insanların, yeniyetmə oğlan və qızların da gəzməli, dincəlməli və istirahət etməli məkanıdır.



Belə istirahət parklarından biri də yenidənqurmadan sonra təzə görkəmdə sakinlərin, xüsusən də azyaşlıların xidmətində olan Nərimanov parkıdır. Ərazisi 4,1 hektar olan bu park gəzinti və əyləncə baxımından şəhər sakinləri üçün sevimli məkandır. Xatırladaq ki, park nadir dizaynda yenidən qurulduqdan sonra buraya gələnlərin sayı bitib-tükənmir, xüsusən də səhər və axşam saatlarında. Parkda olarkən Zeynal Arzumanovla həmsöhbət olduq.

- Uzun illərdir parkın yaxınlığında yaşayıram. Açığı deyim ki, əvvəllər bura qanunsuz küçə ticarəti ilə məşğul olanların yığnağı idi, necə deyərlər, park dükan-bazarı xatırladırdı. Amma indi mənzərə tamam dəyişib. Parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb, yerində salınan yaşıllıq sahələri, dekorativ kollar göz oxşayır. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda təmir edilib, yeni işıqlandırma sistemləri, idman qurğuları, uşaq-əyləncə meydançası yaradılıb, habelə yağış sularının axıdılması üçün xətlər çəkilib. Bir sözlə, parka əylənməyə gələnlərə, xüsusən də ailəli gəzintiləri üçün hər cür şərait yaradılıb.

Ötən şənbə günündən paytaxt sakinlərinin asudə vaxtının daha səmərəli təşkili məqsədilə yeni bir ənənənin əsası qoyulub. Bakı Şəhər İcra Hakimiyyəti və rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə açıq havada konsertlərə start verilib.

***Rəhman SALMANLI,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Rusiya səfiri Azərbaycan XİN-ə çağırılıb

**Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb.**



XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı son dövrlərdə Rusiya Federasiyasının media və informasiya məkanında Azərbaycan Respublikası, Azərbaycan xalqı və ölkə rəhbərliyi əleyhinə səsləndirilən təxribat, təhqir və təhdid xarakterli açıqlamalarla bağlı Azərbaycan tərəfinin ciddi narahatlığı və qəti etirazı Rusiya tərəfinin diqqətinə çatdırılıb.

Xüsusilə, avqustun 13-də "Çistota ponimaniya" layihəsi çərçivəsində yayımlanan verilişdə ölkəmizə, xalqımıza və Azərbaycan Respublikasının rəhbərliyinə qarşı səsləndirilən ifadələrə diqqət çəkilib.

Bununla yanaşı, avqustun 7-də "Sputnik" radiosunda yayımlanan proqramda Azərbaycan rəhbərliyinin "Rusiyanın terrorçu və ekstremistlər siyahısına" daxil edilməsi ilə bağlı səsləndirilən cəfəngiyyat, avqustun 9-da "YouTube" platformasında, avqustun 16-da isə "Spas" telekanalında Azərbaycanın rəhbərliyinə qarşı yenidən təhqir məzmunlu materialın yayımlanması və təxribatçı fikirlərin səsləndirilməsi xatırlanıb.

Azərbaycan dövlətinin daxili siyasi proseslərinə müdaxilə imkanlarının müzakirə edilməsinin, Azərbaycan xalqına və Azərbaycan rəhbərliyinə qarşı fiziki zorakılıq xarakterli çağırışların səsləndirilməsinin qəbuledilməz olduğu vurğulanıb.

Azərbaycan tərəfinin dəfələrlə sözügedən fəaliyyətlərin qarşısının alınmasına dair çağırışlara və məsələnin müxtəlif siyasi səviyyələrdə müzakirə edilməsinə baxmayaraq, analoji ritorikanın daha sərt formada davam etməsinin ciddi narahatlıq doğurduğu bildirilib.

Görüşdə Rusiyanın informasiya və media məkanında Azərbaycan əleyhinə təxribat, təhdid və zorakılıq ritorikasına son qoyulması məqsədilə təxirəsalınmaz və təsirli tədbirlərin görülməsi barədə gözləntimiz bir daha qarşı tərəfin diqqətinə çatdırılıb.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



# Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Dərbənd filialı 2026/2027-ci tədris ili üçün bakalavr səviyyəsi üzrə abituriyent qəbulu elan edir

Qəbul aşağıdakı ixtisaslar üzrə əyani-qiyabi təhsil formasında həyata keçirilir:

- **Maliyyə və kredit;**
- **Mühasibat uçotu, təhlil və audit;**
- **Ümumi iqtisadiyyat.**

Təhsil ödənişli (müqavilə əsasında) təşkil olunur. Təhsil müddəti 4 il 6 ay təşkil edir.

Rusiya Federasiyasının vətəndaşları qəbul qaydalarına uyğun olaraq Rusiya Federasiyasının qüvvədə olan qanunvericiliyinə əsasən qəbul edilirlər.

Xarici ölkə vətəndaşları üçün aşağıdakı fənlər üzrə qəbul imtahanları keçirilir:

- **Riyaziyyat - test üsulu ilə;**
- **Azərbaycan və rus dilləri - imla;**
- **Coğrafiya - test üsulu ilə.**

Əyani-qiyabi təhsil forması üzrə sənəd qəbulu 19 avqust - 25 sentyabr 2026-cı il tarixlərində aparılır.

Müsabiqədə iştirak etmək istəyən şəxslər Dərbənd filialının qəbul komissiyasına aşağıdakı sənədləri təqdim etməlidirlər:

- qəbul üçün müəyyən olunmuş ərizə;
- şəxsiyyəti və vətəndaşlığı təsdiq edən sənədin rus dilinə tərcümə edilmiş, notariat qaydasında təsdiq olunmuş surəti;
- təhsil haqqında sənədin əsli və rus dilinə tərcümə edilmiş, notariat qaydasında təsdiq olunmuş surəti;
- 3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;
- rus dilində tərtib edilmiş tibbi arayış (Forma 086-U).

Qəbul komissiyası həftənin beş günü saat 09:00-18:00, şənbə günü isə 09:00-16:00 aralığında fəaliyyət göstərir.

Sənədləri **dfazeu@yandex.ru** elektron poçt ünvanına da göndərmək mümkündür.

Qəbul prosesi ilə bağlı ətraflı məlumatı **www.ageu-derbent.ru** rəsmi internet saytından, 8 (724) 04-52-86/87, (012) 492 59 03 (daxili: 1190), +7 967 582 01 73 (WhatsApp) telefon nömrələrindən və **dfazeu@yandex.ru** elektron poçt ünvanından əldə etmək olar.

**Ünvan: Rusiya Federasiyası, Dağıstan Respublikası, Dərbənd şəhəri, Heydər Əliyev küçəsi (keçmiş Sovetski küçəsi), 10B, 101 nömrəli auditoriya.**

***Rektorluq***


# *Donald TRAMP:* "Əgər müdaxilə etsələr, biz onları bombalayacağıq"

## İran və ABŞ arasında imzalanmış Anlaşma Memorandumunun müddəti bitib

**Fox News telekanalının jurnalisti Trey Yinqst D.Trampdan İran və Oman arasında Hörmüz boğazına nəzarətlə bağlı aparılan paralel danışıqlar barədə soruşduqda ABŞ lideri cavab verib: "Əgər müdaxilə etsələr, biz onları bombalayacağıq".**




Oman ABŞ və İran arasındakı münaqişədə neytral tərəf olduğunu iddia edir, baxmayaraq ki, müharibənin aktiv mərhələsində dəfələrlə İranın zərbələrinə məruz qalıb. Lakin Oman iki ölkəni ayıran Hörmüz boğazının açılması ilə bağlı bir neçə həftədir Tehranla danışıqlar aparır.

Avqustun əvvəlində iki tərəfin kompromisə yaxın olduğuna dair ilk əlamətlər ortaya çıxdı: İran diplomatları Tehranın boğazdan gəmilərin keçməsi üçün yeni marşrutun coğrafi koordinatları barədə razılığa gəldiyini açıqladılar. Lakin danışıqlardan xəbəri olan mənbələr "Financial Times" qəzetinə bildirdilər ki, İran ilkin razılaşmanın şərtlərində dəyişikliklər tələb edib. Bununla belə, BBC-nin Amerika tərəfdaşı CBS News telekanalının məlumatına görə, İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqayi Tehranda jurnalistlərə bildirib ki, tranzit marşrutu xəritəsi ilə bağlı qarşılıqlı anlaşma əldə olunub.

Eyni zamanda İran israr edir ki, Tehran və Maskat arasında mümkün razılaşma Hörmüz boğazının mütləq açılacağı demək deyil, çünki bunun üçün ABŞ bir neçə şərtə cavab verməlidir. Xatırladaq ki, İran rəsmiləri, digər şərtlərlə yanaşı, müharibə zamanı dəyən ziyana görə kompensasiya və Vaşinqton tərəfindən dəniz blokadasının aradan qaldırılmasını tələb edirlər. Tehran həmçinin Hörmüz boğazından keçən yüklərin dəyərinin 5 faizdən 7 faizinə qədər rüsum tələb etmək istəyir.

Bu arada İran və ABŞ arasında iyunun 17-də imzalanmış və 60 gün davam etməsi nəzərdə tutulan Anlaşma Memorandumunun müddəti bitib. Bazar ertəsi BBC Ağ Evin Oval ofisində müxbirlərlə söhbəti zamanı Trampdan memorandumun uzadılmasını istəmək niyyətində olub-olmadığını soruşub. ABŞ Prezidenti qısaca "xeyr" cavabını verib.

Sənəddə hərbi əməliyyatlara son qoyulması, İranın dəniz blokadasının qaldırılması və müharibədən əvvəl qlobal neft və mayeləşdirilmiş təbii qaz (LNG) tədarükünün təxminən 20 faizinin keçdiyi həyati əhəmiyyətli ticarət yolu olan Hörmüz boğazının açılması nəzərdə tutulurdu. Lakin ABŞ və İran arasında atəşkəs dəfələrlə pozulmuş, tərəflər qarşılıqlı zərbələr endirməkdə davam etmiş və boğaz bağlı qalmışdır.

Bu arada Tramp media nümayəndələrinə İranla bağlı razılaşmanı tələsdirmək üçün heç bir səbəbin olmadığını deyib: "Onlar yaxşı oynayırlar, amma həlak olacaqlar. Mənim vaxt çərçivəm yoxdur. Tələsmirəm". ABŞ Prezidenti sosial media hesabı "Truth Social"da paylaşım edərək bildirib: "Birnömrəli məqsəd - bu, həmişə belə olacaq - İranın heç bir formada nüvə silahına sahib ola bilməməsidir".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Mülayim şimal-qərb küləyi əsəcək

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz olacaq. Mülayim şimal-qərb küləyi əsəcək.**



Bu barədə AZƏRTAC-a Milli Hidrometeorologiya Xidmətindən bildirilib.

Qeyd edilib ki, havanın temperaturu gecə 22-25°, gündüz 29-33° isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 19-24°, gündüz 32-37° isti, dağlarda gecə 12-17°, gündüz 20-25° isti olacaq.

# Azərbaycan muğamı Rumıniyada beynəlxalq festivalda təqdim olunub





**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin və ölkəmizin Rumıniyadakı səfirliyinin dəstəyi ilə Rumıniyanın Maramureş vilayətinin Tsırqu-Lapuş şəhərində keçirilən beynəlxalq festivalda muğam mədəniyyətimiz nümayiş olunub.**

AZƏRTAC xəbər verir ki, Maramureş vilayəti Gününə həsr olunmuş festivalda Rumıniya, Moldova, Ukrayna, Albaniya və Azərbaycandan vokal və rəqs ansamblları iştirak ediblər.

Tədbirdə Azərbaycan Dövlət Akademik Filarmoniyasının F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solistləri "Muğam" televiziya müsabiqəsinin laureatı Rəvanə Qurbanova (xanəndə), Əməkdar artist Xəyyam Məmmədov (kamança) və Əməkdar mədəniyyət işçisi Elçin Abbasov (tar) milli musiqi və muğam nümunələrimizi yüksək məharətlə ifa ediblər. Azərbaycanlı sənətçilər festival təşkilatçıları tərəfindən mükafatlandırılıblar.

Rumıniyanın və iştirakçı ölkələrin dövlət rəsmilərinin qatıldığı tədbirdə Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov, eləcə də Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

# ALLAH RƏHMƏT ELƏSİN!

Ramil Usubov polis general-mayoru Səhlab Bağırova qardaşı

**NATİQ BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Hacı Rəzzaq Gözəlov Cavanşir Qədirova həyat yoldaşı

**ELNARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov general-mayor

**ABBASƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin rəhbərliyi və kollektivi Kürdəmir Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Mobil Aşurova anası

**TAHİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3301**
Sifariş **1066**

**Qiyməti 60 qəpik**